RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 57 (9512) 14 mart 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan ilə BP arasında strateji tərəfdaşlıq həyata keçirilir



### Prezident İlham Əliyev BP-nin yeni baş icraçı direktorunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BP şirkətinin yeni baş icraçı direktoru Mürrey Aukinklosu qəbul edib.

→ 2

## COP29-la bağlı qərar Azərbaycana olan böyük etimadın təzahürüdür

### Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini və İdarə Heyətinin üzvlərini qəbul edib

→ 2



## "Bakı Qlobal Forumu əhəmiyyətli platformalardan biridir"



### Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının baş direktorunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesusu qəbul edib.

→ 2

## Azərbaycan vahid Çin siyasətini, Çinin ərazi bütövlüyünü daim dəstəkləyir

### Prezident İlham Əliyev Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsini qəbul edib

→ 2



## Görüşdə BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlıqdan məmnunluq ifadə olundu



### Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.

→ 2

## Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətləri uğurla inkişaf edir

### Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul edib.

→ 2



# Dostluqdan müttəfiqliyə



Hər iki dövlət öz inkişafının aktiv fazasındadır. İri neft-qaz ixracatçısı olan Azərbaycan və Qazaxıstan qlobal enerji təhlükəsizliyinin real təminatçıları rolunda çıxış edirlər. Bütün bunlarla yanaşı, hər iki ölkə "Şərq-Qərb" nəqliyyat dəhlizinin iştirakçısı olmaqla, bu istiqamətdə marşrutların inkişafına mühüm töhfələr verir, beynəlxalq məsələlərdə ortaq mövqe nümayiş etdirir, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində əməkdaşlıq edirlər.

Bu günlərdə Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri isə iki türk dövləti arasında strateji müstəviyə qədəm qoymuş qarşılıqlı münasibətlərin daha da inkişafı üçün geniş imkanların olduğunu göstərdi. Onu da qeyd edək ki, son il yarım ərzində Prezident İlham Əliyev Qazaxıstana dörd dəfə səfər edib. Qazaxıstan Prezidenti isə bu dövrdə üçüncü dəfə ölkəmizə gəldi. Səfərlərin dinamikası da təsdiqləyir ki, Azərbaycan-Qazaxıstan münasibətləri həm strateji tərəfdaşlıq, həm dostluq, həm qardaşlıq, həm də mehriban qonşuluq çərçivəsində daha da genişlənməkdədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, qarşılıqlı səfərlərimizin dinamikası çox illüstrativdir və bu, münasibətlərə yeni dinamizm verildiyini göstərir: "Qazaxıstan və Azərbaycan iki qardaş dövlətdir. Xalqlarımız ictimai-siyasi formasiyadan asılı olmayaraq, uzun əsrlər boyu sülh, qardaşlıq, əməkdaşlıq şəraitində yaşayır. İki müstəqil dövlət olaraq isə artıq 30 ildən çoxdur ki, həm beynəlxalq strukturlarda, həm də ikitərəfli formatda fəal qarşılıqlı fəaliyyət göstərir. Son vaxtlar qarşılıqlı səfərlərimizin dinamikası çox illüstrativdir və bu, münasibətlərə yeni dinamizm verildiyini göstərir".

→ 6

## Azərbaycan-Pakistan strateji tərəfdaşlığı və müttəfiqliyi möhkəmləndirilir

### Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Asif Əli Zərdariyə

Hörmətli cənab Prezident.

Pakistan İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Qardaş Pakistan ilə möhkəm təməllər üzərində qurulmuş dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında yüksəksəviyyəli qarşılıqlı anlaşmanın mövcudluğu müxtəlif sahələrdə əlaqələrimizin daha da genişləndirilməsi üçün əlverişli zəmin yaradır.

Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-Pakistan strateji tərəfdaşlığının və müttəfiqliyinin möhkəmləndirilməsi və dərinləşdirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın xoş ənənələrinin bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının əmin-amanlığı və firavanlığı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2024-cü il*

## Qarabağ yenidən yaşıl libas geyinir

### İşğaldan azad olunmuş ərazilərdə meşələr bərpa edilir, təzə yaşıllıqlar salınır

Meşələrin və yaşıllığın bərpası getdikcə işğaldan azad olunmuş digər bölgələrimizi də əhatə edir. Bu bölgələr isə ölkəmizin meşələrlə zəngin olan ərazilərindəndir. Prezident İlham Əliyevin dediyi kimi: "Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağciyəridir".

→ 9

## İslamofobiya Fransanın dövlət siyasətinin bir hissəsidir

Bir çox Avropa ölkələrində dini geyimi qadağan edən qanunlar var və bu, azadlıq hüququnun kobud şəkildə pozulmasıdır. Dini geyimlərə qoyulan məhdudiyyətlər çox vaxt bütün dinlərə mənsub insanlara şamil edilən neytrallıq çərçivəsində əsaslandırılır, lakin əslində bu, yalnız müsəlman qadınlara qarşı yönəlib və islamın Qərb dəyərlərinə uyğun gəlməməsi ilə bağlı daha geniş müzakirələrin bir hissəsidir. İslamofobiya Fransa dövlətinin siyasətidir. Müsəlman qadınların fundamental hüquqları pozulur, həm din, həm də cinsiyyət zəminində ayrı-seçkilik edilir. Bəzi Avropa ölkələri istənilən formada dini dözümsüzlük və gender bərabərsizliyinə qarşı qətiyyətli mövqe tutmalıdır.

→ 8

## Qərbin bədnam planları baş tutmayacaq

Baş verənlər Azərbaycan - ABŞ ikitərəfli əlaqələrinə zərbə vurur. Həm də bu məsələdə uduzan tərəfin məhz ABŞ olduğu danılmaz həqiqətdir. Bu baxımdan Ağ Evin Azərbaycanla münasibətlərində riyakarlıqdan əl çəkməməsi, əlaqələrində səmimiyyətdən uzaq olması, ölkəmizin daxili işlərinə qarışması həm də bölgədəki bütün siyasətinin iflası anlamına gəlir.

Azərbaycan öz gücünə torpaqlarını işğaldan azad edib, parlaq Zəfər qazanıb, suverenliyini təmin edib. 2024-cü il fevralın 7-də keçirilən prezident seçkiləri ilə sarsılmaz milli birliyini dünyaya nümayiş etdirib. Bütün bunlar ölkəmizdə qarşıdurma yaradan ABŞ-yə, Fransaya, ümumiyyətlə siyasətləri "müstəqil ölkələri parçala, hökm sür" olan qərəzli Qərb ölkə və təsisatlarına gözdağıdır.

→ 8

# Azərbaycan ilə BP arasında strateji tərəfdaşlıq həyata keçirilir

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Mürrey Aukinklos İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirdi.

Bakıya səfərindən məmnunluğunu ifadə edən qonaq Azərbaycanın 30 ildə qazandığı nailiyyətlər münasibətilə də təbriklərini çatdırdı, bu müddətdə ölkəmizdə enerji resurslarından əldə olunan gəlirlərin iqtisadiyyatımızın inkişafına yönəldilməsinin önəmini vurğuladı. Mürrey Aukinklos Azərbaycan ilə BP-nin əməkdaşlığını məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev uzun illər ərzində ölkəmizin BP ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini dedi. Dövlətimizin başçısı 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin önəmini vurğulayaraq, həmin dövrdən başlayaraq Azərbaycan ilə BP arasında strateji tərəfdaşlığın həyata keçirildiyini qeyd etdi. Azərbaycan Prezidenti ölkəmizdə enerji resurslarının istehsalından əldə olunan gəlirlərin iqtisadi, sosial və bütün digər sahələrin inkişafına səmərəli surətdə yönəldildiyini bildirdi.

Görüşdə ölkəmizlə əməkdaşlığın nəticələrindən biri olaraq Azərbaycanın bölgənin bir sıra və Avropa dövlətlərinin enerji təhlükəsizliyinə, xüsusilə dayanıqlı qaz təchizatına töhfəsinə toxunuldu, yeni dövrdə ölkəmizin karbohidrogen enerji resursları ilə yanaşı, bərpaolunan enerji mənbələrinin potensialı qeyd edildi, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə bu il BP şirkəti tərəfindən bu istiqamətdə layihənin həyata keçiriləcəyi vurğulandı.

Söhbət zamanı BP ilə SOCAR arasında gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.

# COP29-la bağlı qərar Azərbaycana olan böyük etimadın təzahürüdür



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa İdarə Heyətinin üzvlərini qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Vayra Vike-Freyberqa İlham Əliyevi prezident seçkilərində qələbə münasibətilə təbrik edərək vurğuladı ki, bu, Azərbaycan xalqının dövlətimizin başçısına böyük inam və etimadının təzahürüdür. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, həmçinin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və ölkəmizin COP29-a evsahibliyi etməsi münasibətilə təbriklərini çatdırdı, bunun Azərbaycan üçün çox böyük nailiyyət olduğunu dedi. O qeyd etdi ki, bu, Azərbaycanın dünyada "yaşıl enerji" sahəsində də qlobal liderliyinin təcəssümüdür.

Vayra Vike-Freyberqa artıq XI Qlobal Bakı Forumunun Azərbaycanda keçirildiyini deyərək, builki forumun iştirakçıları arasında keçmiş dövlət və hökumət başçılarının, xarici işlər nazirlərinin, müxtəlif ölkə, beynəlxalq təşkilat, özəl və vətəndaş cəmiyyəti sektorlarının nümayəndələrinin, digər rəsmilərin, ümumilikdə 350-dən çox qonağın olduğunu diqqətə çatdırdı. O, bu forumda qlobal gündəlikdə duran siyasi, təhlükəsizlik, iqtisadi, maliyyə və digər məsələlərin müzakirə olunacağını, həll yolları ilə bağlı tövsiyələrin veriləcəyini qeyd etdi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin öz növbəsində Azərbaycana təbriklərini çatdırdı və XI Qlobal Bakı Forumunun yeni uğurlara imza atacağına ümidvar olduğunu bildirdi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin də COP29-a sədrlik və bu sessiyaya evsahibliyi prosesində Azərbaycana öz dəstəyini verməyə hazır olduğunu dedi, Mərkəzdə COP prosesində iştirak etmiş çoxsaylı mütəxəssislərin olduğunu vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, forumun işinə uğurlar arzuladı. Azərbaycan Prezidenti XI Qlobal Bakı Forumunun da beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi baxımından mühüm platforma olduğunu qeyd etdi. Hazırda Azərbaycanın bu tədbirin nəticəyönümlü olması istiqamətində həm mahiyyət, həm də təşkilati nöqteyi-nəzərdən hazırlanması baxımından bütün lazımi tədbirləri həyata keçirdiyini diqqətə çatdırdı. Azərbaycanın qazıntı yanacağı ixrac edən ölkə olması ilə bərabər, "yaşıl keçid" istiqamətində də çox vacib layihələri icra etdiyini dedi. Prezident İlham Əliyev vurğuladı ki, beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı qərar Azərbaycana olan böyük etimadın təzahürüdür. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyini uğurla başa çatdırdığını xatırladan dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın bu hərəkata sədrliyi, müxtəlif beynəlxalq təşkilatlarda fəal rolu və təmsilçiliyi COP29-a sədrliyin də uğurla başa çatdırılması üçün əlverişli imkanlar yaradır. Prezident İlham Əliyev Azərbaycanın bu tədbirə evsahibliyi edərək qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizə prosesinə və milli səviyyədə olan uğurlu addımları ilə "yaşıl keçid" prosesinə töhfə vermək əzminin və niyyətinin olduğunu qeyd etdi. Hazırda qlobal istiliyin 1,5 dərəcədən çox artmasının qarşısının alınmasının və ya bu çərçivədə saxlanılması üzrə bütün səylərin səfərbər olunmasının vacibliyini qeyd edən Azərbaycan Prezidenti COP29-un xüsusilə iqlim maliyyələşdirilməsi mövzusuna həsr olunduğunu nəzərə alaraq, ölkəmizin bu istiqamətdə bütün beynəlxalq səyləri səfərbər edəcəyini dedi, hazırda Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri və Braziliya ilə birlikdə COP29 çərçivəsində "üçlük" formatında ardıcıl işlər apardığını bildirdi. Dövlətimizin başçısı Xəzər və Qara dənizi birləşdirən "yaşıl enerji" dəhlizinin yaradılması layihəsindən danışdı.

Görüşdə qlobal və regional gündəlikdə duran məsələlər, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesi ətrafında fikir mübadiləsi aparıldı, ölkəmizin regional sülh gündəliyini dəstəklədiyi qeyd edildi. Prezident İlham Əliyev sülh gündəliyinin əsasını təşkil edən fundamental prinsiplərin və sülh müqaviləsinin layihəsinin də məhz Azərbaycan tərəfindən hazırlanaraq təqdim olunduğunu və ölkəmizin Cənubi Qafqaz regionunda sülh gündəliyini yaxından dəstəklədiyini diqqətə çatdırdı.

Söhbət zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa-quruculuq işləri qeyd edildi. Qonaqların özləri də həmin ərazilərimizə dəfələrlə səfər etdiklərini deyərək, bu ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinin nümunəvi xarakter daşıdığını və onlarda zəngin təəssürat yaratdığını dedilər.

Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin vahid bir geosiyasi məkan olaraq siyasi, iqtisadi, nəqliyyat, logistika və digər sahələrdə dinamik surətdə inkişaf edən əməkdaşlığı nümunə kimi qiymətləndirildi. Orta dəhlizin əhəmiyyətinə toxunularaq, bu xüsusda Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə birgə həyata keçirdiyi layihələrin önəmi qeyd edildi, ölkəmizin Avropanın, xüsusən də Avropa İttifaqına üzv ölkələrin enerji təhlükəsizliyinə töhfəsi vurğulandı. Görüşdə Azərbaycanın Avropa ölkələrinə qaz ixracı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Görüşdə BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlıqdan məmnunluq ifadə olundu

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Migel Anxel Moratinos İlham Əliyevi prezident seçkilərində qələbəsi və Azərbaycanın COP29-un sədri seçilməsi münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi. Qonaq ölkəmizin qazandığı nailiyyətlərin heyranedici olduğunu və Azərbaycanın Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyini vurğuladı. O, BMT-nin Sivilizasiyalar Alyansı ilə Azərbaycan arasında əməkdaşlıqdan məmnunluğunu ifadə edərək verilmiş dəstəyə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı COP29 çərçivəsində Dünya Dini Liderlərinin iqlim dəyişmələrinə qarşı mübarizəyə dəstək mövzusunda da tədbirlərinin keçiriləcəyi qeyd olundu, bu xüsusda əməkdaşlıq məsələlərinə toxunuldu. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyəti yüksək qiymətləndirildi, onun beynəlxalq səviyyədə ən mühüm platformalardan birinə çevrildiyi vurğulandı. XI Qlobal Bakı Forumunda da dünyanın müxtəlif regionlarını təmsil edən çox sayda iştirakçının olduğu, burada aktual məsələlərin müzakirə ediləcəyi bildirildi. Görüşdə Mədəniyyətlərarası Dialoq Forumunun Azərbaycanda uğurla keçirildiyi və bu ənənənin bundan sonra da davam edəcəyi vurğulandı. BMT-nin Sivilizasiyalar Alyansının Mədəniyyətlərarası Dialoq Forumunun tərəfdaşı olaraq öz dəstəyini daim göstərdiyi qeyd edildi.

Söhbət zamanı Avropa ölkələrində artan islamofobiya meyillərindən narahatlıq ifadə olundu.

# "Bakı Qlobal Forumu əhəmiyyətli platformalardan biridir"

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Tedros Adhanom Gebreyesus İlham Əliyevi prezident seçkilərində qələbə və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Görüşdə XI Qlobal Bakı Forumunun əhəmiyyəti qeyd edildi, Tedros Adhanom Gebreyesusun bu tədbirdə iştirakının önəmi vurğulandı. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq aləmdə nüfuzunun artdığı bildirildi və bu forumda xeyli sayda qonağın iştirakı bunun yaxşı göstəricisi kimi dəyərləndirildi.

Qonaq Ümumdünya Səhiyyə Təşkilatı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi arasında əməkdaşlıqdan məmnunluğunu bildirərək bu mərkəzin onun rəhbərlik etdiyi təşkilatın fəaliyyətinə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi və mərkəzin İdarə Heyətinin üzvləri ilə mütəmadi olaraq görüşlər keçirdiyini qeyd etdi.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq statuslu qeyri-hökumət təşkilatı olaraq müstəqil şəkildə fəaliyyət göstərdiyini və ölkəmizin də bu təşkilatın işinə dəstək verdiyini vurğuladı. Dövlətimizin başçısı hər il Bakının evsahibliyi ilə keçirilən Qlobal Forumun beynəlxalq gündəlikdə duran məsələlərinin müzakirəsi və onların həlli yollarının tapılması baxımından əhəmiyyətli platformalardan biri olduğunu qeyd etdi.

Ölkəmizdə həyata keçirilən səhiyyə islahatlarının təqdirəlayiq olduğunu deyən Tedros Adhanom Gebreyesus Azərbaycanda yaradılan icbari tibbi sığorta sisteminin müsbət proses olduğunu və onun yaxşı nəticələrinin artıq özünü göstərdiyini dedi.

Görüşdə COP çərçivəsində Azərbaycan ilə ÜST arasında əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. İqlim dəyişmələrinin dünyada müxtəlif növ xəstəliklərin yayılmasına rəvac verdiyini və bilavasitə səhiyyə ilə bağlı olduğunu vurğulayan Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru bu sahədə də Azərbaycan ilə əməkdaşlıq məsələlərinə toxundu.

# Azərbaycan vahid Çin siyasətini, Çinin ərazi bütövlüyünü daim dəstəkləyir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbonu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Vu Honqbo İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi, Çin Prezidenti Si Cinpinin bu münasibətlə dövlətimizin başçısına təbrik məktubu göndərdiyini xatırladı və Çin Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, həmçinin COP29-un Azərbaycanda keçirilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə və Çin Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Qonaq Prezident İlham Əliyevin güclü rəhbərliyi ilə Azərbaycanın siyasi, iqtisadi, sosial və digər sahələrdə çox ciddi nailiyyətlər əldə etdiyini vurğuladı.

Vu Honqbo qeyd etdi ki, 2022-ci ildə Azərbaycan və Çin prezidentləri arasında Səmərqənddə keçirilmiş görüş əlaqələrimizin inkişafına böyük təkan verib və bundan sonra münasibətlərimizdə yeni nailiyyətlər əldə edilib. Qonaq bu gün Azərbaycan-Çin münasibətlərinin tarixdə ən yüksək səviyyədə olduğunu vurğuladı.

Dövlətimizin başçısı Çin Prezidenti ilə Səmərqənddə keçirilmiş görüşü məmnunluqla xatırladı və həmin görüş əsnasında müzakirə olunan məsələlərin irəli aparılması istiqamətində hər iki tərəfin ciddi səylər göstərdiyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Çin ilə əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaqda maraqlı olduğunu vurğuladı.

Dövlətimizin başçısı COP çərçivəsində də ölkəmizin Çin ilə yaxından əməkdaşlıq etməyə hazır olduğunu bildirdi, Çinin bərpaolunan enerji sahəsində mükəmməl texnoloji nailiyyətlərə imza atdığını, bu sahədə Azərbaycanın Çinlə əməkdaşlığa hazır olduğunu dedi. Prezident İlham Əliyev "yaşıl keçid"in Azərbaycanın prioritetlərindən biri olduğunu qeyd edərək, bu sahədə birgə istehsal müəssisələrinin yaradılmasında da ölkəmizin maraqlı olduğunu bildirdi.

Qonaq Azərbaycanın Çinin ərazi bütövlüyünə göstərdiyi davamlı və qətiyyətli dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın vahid Çin siyasətini, Çinin ərazi bütövlüyünü daim dəstəklədiyini və Tayvanın müstəqilliyini tanımadığını, orada keçirilən seçkiləri qəti şəkildə pislədiyini vurğuladı.

Vu Honqbo Azərbaycan ilə Çin arasında əlaqələrin qarşılıqlı etimad əsasında inkişaf etdiyini vurğuladı, ikitərəfli münasibətlərin çox yaxşı səviyyədə olduğunu dedi. Qonaq "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycan-Çin əməkdaşlığını və Orta dəhlizin ölkəsi üçün böyük əhəmiyyətə malik olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Orta dəhlizin mühüm strateji əhəmiyyətə malik olduğunu və Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əlaqələrini qeyd etdi, Orta dəhlizin inkişafı istiqamətində Azərbaycan, Qazaxıstan və Gürcüstanın birgə müəssisə yaratdığını bildirdi. Bu xüsusda ölkəmizin Çinlə də əməkdaşlığa hazır olduğunu qeyd edərək, Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı Çindən olan yük qatarının Bakıda qəbul edilməsinin mühüm məqam olduğunu vurğuladı və bunu Orta dəhlizin nəqliyyat potensialının nümayişi kimi qiymətləndirdi.

Qonaq Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XI Qlobal Bakı Forumunun əhəmiyyətini vurğuladı, bu çərçivədə də mühüm müzakirələrin aparılacağını qeyd etdi.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanla Çinin qarşılıqlı dəstəyi və bu xüsusda əməkdaşlıq, həmçinin ölkələrimiz arasında mədəni-humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi yüksək qiymətləndirildi.

# Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətləri uğurla inkişaf edir

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Binəli Yıldırım Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada artan nüfuzunu qeyd etdi, onun vacib beynəlxalq məsələlərin müzakirə edildiyi platforma olduğunu diqqətə çatdırdı.

O, XI Qlobal Bakı Forumunun da uğurla keçəcəyinə əminliyini bildirdi. Binəli Yıldırım Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri olaraq hər zaman göstərilən dəstəyə görə təşəkkürünü ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycanda prezident seçkilərindən sonra həmişə olduğu kimi, ənənəyə uyğun olaraq ilk rəsmi səfərini məhz Türkiyəyə etdiyini vurğuladı və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla apardığı müzakirələri məmnunluqla xatırladı. Görüşdə Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı, əlaqələrimizin müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Roma Papası Fransisk Həzrətlərinə

Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün həmməzhəblərinizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı əlaqələrin inkişafına xüsusi əhəmiyyət veririk. Aramızda uzun illərdən bəri təşəkkül tapmış səmimi dialoq və qarşılıqlı anlaşma ümumbəşəri dəyərlərin qorunub saxlanmasına, müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri arasında həmrəyliyin bərqərar olmasına xidmət edir.

Azərbaycanın multikulturalizm və inklüzivlik ənənələrinə, dünyada dinlərarası və mədəniyyətlərarası qarşılıqlı anlaşmanın təşviqində roluna verdiyiniz yüksək qiymətə görə Sizə təşəkkürümü ifadə edirəm.

Əminəm ki, Azərbaycan-Müqəddəs Taxt-Tac nümunəvi əməkdaşlığı bundan sonra da sivilizasiyalar arasında qarşılıqlı etimad mühitinin bərqərar edilməsinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, uzun ömür, müqəddəs amallar naminə ali missiyanızda uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2024-cü il*

# Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Məsim Əhməd oğlu Məmmədov Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

2. "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 mart tarixli 3806 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 3, maddə 411 (Cild I) ləğv edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2024-cü il*

# Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Vahid Rasim oğlu Hacıyev Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

2. "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 3699 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1527 (Cild I) ləğv edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2024-cü il*

# "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 17-ci bəndlərini rəhbər tutaraq, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Su Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 135 (Cild I) 84-cü maddəsinin birinci hissəsinin dördüncü abzasında "istehsalat, məişət tullantıları" sözləri "tullantılar" sözü ilə, beşinci abzasında "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikası Meşə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 139 (Cild I) 59-cu maddəsinin üçüncü hissəsində "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I) 34-cü maddəsinin 5-ci hissəsinin üçüncü abzasında "istehsalat və məişət tullantılarından" sözləri "tullantılardan" sözü ilə əvəz edilsin.

**Maddə 4.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I) 260.2-ci maddəsinin dispozisiyasında "istehsalat və məişət tullantıları ilə" sözləri "tullantılarla" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 7, maddə 116; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 1-ci maddəsinin birinci hissəsinin 4-cü bəndinin "v" yarımbəndində "istehsal və məişət tullantılarında" sözləri "tullantılarda" sözü ilə əvəz edilsin.

**Maddə 6.** "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 224 (Cild I) 21-ci maddəsinin birinci hissəsinin onuncu abzasında "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə, on üçüncü abzasında "sənaye və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**Maddə 7.** "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 471 (Cild I) 9-cu maddəsinin 2.2-ci bəndində "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**Maddə 8.** "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 10-cu maddənin birinci hissəsində "məişət və istehsalat tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

8.2. 24-cü maddənin 1-ci hissəsində "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

8.3. 47-ci maddə üzrə:

8.3.1. adında "istehsalat və məişət tullantılarından" sözləri "tullantılardan" sözü ilə əvəz edilsin;

8.3.2. 1-ci və 4-cü hissələrdə "İstehsalat və məişət tullantılarının" sözləri "Tullantıların" sözü ilə əvəz edilsin;

8.4. 52-ci maddənin 10.12-ci bəndindən "o cümlədən istehsalat tullantılarının" sözləri çıxarılsın.

**Maddə 9.** "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 128 (Cild I) 1-ci maddəsinin birinci hissəsinin yeddinci abzasında "məişət və istehsalat tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**Maddə 10.** "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 364 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 16-cı maddə üzrə:

10.1.1. adında "İstehsal və məişət tullantılarının" sözləri "Tullantıların" sözü ilə əvəz edilsin;

10.1.2. 16.1-ci maddədə "istehsal və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

10.1.3. 16.2-ci maddədə "İstehsal və məişət tullantıları" sözləri "Tullantıları" sözü ilə əvəz edilsin;

10.1.4. 16.3-cü maddədə "istehsal və məişət tullantıları" sözləri "tullantılar" sözü ilə əvəz edilsin;

10.2. 28.0.8-ci maddədə "sənaye və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**Maddə 11.** "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 10, maddə 870 (Cild I) 1.1.1-ci maddəsində "istehsal və məişət tullantılarında" sözləri "tullantılarda" sözü ilə əvəz edilsin.

**Maddə 12.** "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 606 (Cild I) 10.0.2-ci maddəsində "istehsalat və məişət tullantıları ilə" sözləri "tullantılarla" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2024-cü il*

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, yol hərəkətinin təşkili sahəsində tənzimləmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bəndə "Nazirliyi," sözündən sonra "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi," sözləri əlavə edilsin və həmin bənddən ", Bakı Nəqliyyat Agentliyi" sözləri çıxarılsın;

1.2. 2.4-cü bəndə "habelə" sözündən sonra "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin," sözləri əlavə edilsin və həmin bənddən ", Bakı Nəqliyyat Agentliyinin" sözləri çıxarılsın;

1.3. 2.8-ci, 2.9-cu, 2.22-ci və 2.23-cü bəndlərdə "Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi" sözləri "Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.4. 2.11-ci bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

1.5. 2.12-ci bəndə "Respublikasının" sözündən sonra "Rəqəmsal İnkişaf və" sözləri əlavə edilsin;

1.6. 2.21-ci bənddə "Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.7. aşağıdakı məzmunda 2.21-1-ci bənd əlavə edilsin:

"2.21-1. həmin Qanunun 9-cu maddəsinin IX hissəsində (birinci halda) "orqan (qurum)" dedikdə svetoforlara münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, yol nişanları, nişanlama xətləri və yol hərəkətinin təşkilinin digər texniki vasitələrinə münasibətdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəyi nəzərə alınmaqla) nəzərdə tutulur;";

1.8. 2.25-ci bənddə "Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi" sözləri "Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.9. 2.31-ci bənddən ", 59-cu maddəsinin 12-ci hissəsində, 61-ci maddəsinin 11-ci hissəsində, 69-cu maddəsinin 2-ci hissəsində" sözləri çıxarılsın və həmin bənddə "Bakı Nəqliyyat Agentliyi" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.10. 2.31-1-ci (hər iki halda), 2.34-cü, 2.35-ci və 2.37-ci (hər iki halda) bəndlərdə "Bakı Nəqliyyat Agentliyi" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.11. 2.32-ci bənddə ", Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi" sözləri "və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.12. 2.36-cı bənddə "11-ci hissəsində və 61-ci maddəsinin 10-cu hissəsində" sözləri "XI və XII hissələrində" sözləri ilə əvəz edilsin və həmin bənddən ", Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla)" sözləri çıxarılsın;

1.13. 2.36-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.36-1. həmin Qanunun 61-ci maddəsinin X hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəyi nəzərə alınmaqla) nəzərdə tutulur;";

1.14. aşağıdakı məzmunda 2.36-2-ci və 2.36-3-cü bəndlər əlavə edilsin:

"2.36-2. həmin Qanunun 61-ci maddəsinin XI hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.36-3. həmin Qanunun 69-cu maddəsinin II hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə yol nişanlanmasına və yol nişanlarının tətbiqinə münasibətdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəyi nəzərə alınmaqla), svetoforların tətbiqinə münasibətdə isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Nizamnaməsi"ndə və 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 613 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Nizamnaməsi"nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

2. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2024-cü il*

# Albaniya Prezidenti Bayram Beqay Azərbaycana işgüzar səfərə gəlib

**Albaniya Respublikasının Prezidenti Bayram Beqay XI Qlobal Bakı Forumunda iştirak etmək üçün martın 13-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Albaniya Prezidenti Bayram Beqayı Azərbaycanın energetika naziri Pərviz Şahbazov və digər rəsmi şəxslər qarşıladılar.



# Baş nazir Əli Əsədov Ümumdünya Buxara Yəhudiləri Konqresinin prezidenti ilə görüşüb



**Martın 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Ümumdünya Buxara Yəhudiləri Konqresinin prezidenti Lev Levayev ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Prezident İlham Əliyevin Azərbaycanda tolerantlığın möhkəmləndirilməsi və multikultural dəyərlərin təbliği istiqamətində apardığı ardıcıl siyasətin uğurla həyata keçirildiyi qeyd olunub.

Həmçinin vurğulanıb ki, ölkədə bütün xalqların və dinlərin nümayəndələrinin, o cümlədən yəhudi icmasının sülh və əmin-amanlıq şəraitində yaşaması üçün hər cür şərait yaradılıb.

# İnzibati icraat zamanı həyata keçirilən tədbirlərə hal şahidlərinin cəlb edilməsi aradan qaldırılır

Martın 13-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda 4 məsələ müzakirə olunub.



Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli əvvəlcə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Qeyd olunub ki, layihə inzibati icraat zamanı həyata keçirilən tədbirlərə kənar şəxslərin (hal şahidlərinin) cəlb edilməsinin aradan qaldırılmasını nəzərdə tutur. Belə ki, İnzibati Xətalar Məcəlləsinə görə şəxsi axtarış və fiziki şəxsdə olan əşyaları yoxlama, nəqliyyat vasitəsinə baxış və bir sıra digər tədbirlər hal şahidlərinin iştirakı ilə həyata keçirilir. Təklif edilən dəyişikliklərə əsasən, hal şahidlərinin iştirakı aradan qaldırılaraq, həmin hallarda fasiləsiz videoçəkiliş aparılmaqla icraatın həyata keçirilməsi təklif edilir.

Əli Hüseynli diqqətə çatdırıb ki, bu dəyişiklik insan hüquqlarının daha səmərəli qorunmasına xidmət edir. Komitənin sədr müavini Qüdrət Həsənquliyev, üzvləri Tahir Kərimli, Fəzail Ağamalı layihə barədə fikirlərini bildirdikdən sonra məsələ Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub. Sonra Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi təqdim olunub.

Qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

Daha sonra komitə sədri Əli Hüseynli "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsinin mahiyyəti barədə danışıb.

Sonuncu məsələ - Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirilib ki, layihə qanunvericiliyin təkmilləşdirilməsi, ipoteka və zaminlik sahəsində meydana çıxan məsələlərin tənzimlənməsi məqsədilə, habelə Konstitusiya Məhkəməsi Plenumunun müvafiq qərarlarında təsbit olunan hüquqi mövqelərə uyğun olaraq hazırlanıb.

Onlayn iclasın sonunda gündəlikdəki üçüncü və dördüncü qanun layihələri də Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Əmək pensiyaları haqqında" qanuna dəyişikliklər ediləcək

Martın 13-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Musa Quliyev diqqətə çatdırıb ki, gündəliyə 6 məsələ daxil edilib.

İclasda, əvvəlcə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə baxılıb. Komitə sədri əmək pensiyaları ilə bağlı qaydaların daim təkmilləşdirildiyini, bu sahədə islahatların uğurla davam etdirildiyini və əmək pensiyalarının təyinatının, ödənişinin, hesablanmasının, verilməsinin elektronlaşdırıldığını bildirib.

Qanun layihəsi barədə Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev ətraflı məlumat verib. Bildirilib ki, sənəddə qanunun Uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ olan şəxslərə dair 8-ci maddəsi yeni redaksiyada təqdim olunur. Dəyişikliyə əsasən, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş səkkiz yaşınadək övladlığa və ya qəyyumluğa götürülmüş uşaqlar da daxil olmaqla beş və daha çox uşağı olan və ya əlilliyi müəyyən edilmiş uşağı olan qadınların və kişilərin, uşaqların səkkiz yaşınadək sağ olması şərtilə, bu Qanunun 7-ci maddəsi ilə müəyyən edilmiş şərtlər daxilində yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır. Bununla yanaşı, bu Qanunun 8.1-ci maddəsi kişilərə münasibətdə qadın vəfat etdiyi (məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildiyi), habelə məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən valideynlik hüququndan məhrum edildiyi və ya nikaha xitam verildiyi üçün uşağın kişinin himayəsinə verildiyi hallarda tətbiq edilir.

Sonra Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) təqdim edilib.

Dövlət Vergi Xidmətinin Hüquq Baş İdarəsinin rəisi Anar Rzayev "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişikliklə əlaqədar fikirlərini açıqlayıb.

İclasda Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanunun layihəsi (birinci oxunuş) də müzakirə edilib. Bildirilib ki, layihəyə əsasən, "Sosial sığorta haqqında" qanunun 12-ci maddəsində "qərarına əsasən yaradılan" sözləri "müəyyən etdiyi orqanın (qurumun) yaratdığı" sözləri ilə əvəz olunur.

Daha sonra "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi təqdim edilib. Bildirilib ki, təklif olunan dəyişikliklərə əsasən, layihədə qeyd olunan qanunlarda müəyyən edilmiş sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" qanunun 14.8-1-ci maddəsi ilə tənzimlənir.

Sonra "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsi təqdim edilib. Qeyd olunub ki, dəyişiliklər uyğunlaşdırma xarakteri daşıyır.

İclasda ikinci oxunuşda təqdim edilən "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə də baxılıb. Sənəddə uyğunlaşdırma xarakterli dəyişikliklərin təklif olunduğu nəzərə çatdırılıb.

Müzakirəyə çıxarılan qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə qərargahın növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, qərargahın rəhbəri Samir Nuriyev iclası açaraq, fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində Azərbaycan xalqının öz güclü liderinə olan inamını və etimadını, dövlətimizin başçısının ölkəmizin inkişafı yolunda həyata keçirdiyi qətiyyətli siyasətə dəstəyini bir daha ifadə etdiyini diqqətə çatdırıb. O qeyd edib ki, builki seçkilərin əsas xüsusiyyəti və önəmi ondadır ki, Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq xalqımız ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş qalib ölkənin vətəndaşları olaraq seçkidə iştirak ediblər. Budəfəki seçkinin ölkəmizin bütün ərazisində, o cümlədən Xankəndidə, Şuşada və işğaldan azad edilmiş digər yerlərdə keçirilməsinin hər bir azərbaycanlı üçün tarixi və qürurverici hadisə olduğu vurğulanıb.

İşğaldan azad edilmiş ərazilərdə dövlətimizin başçısının verdiyi tapşırıqlara uyğun olaraq ötən dövr ərzində genişmiqyaslı yenidənqurma və bərpa tədbirlərinin görüldüyü, keçmiş məcburi köçkünlərin öz dədə-baba yurdlarına qayıdışı istiqamətində işlərin planlı və əlaqələndirilmiş şəkildə davam etdirildiyi qərargahın rəhbəri tərəfindən qeyd olunub.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında şəhərsalma fəaliyyəti, o cümlədən şəhərlərin və digər yaşayış məntəqələrinin yenidən



qurulması, bərpası, nəqliyyat infrastrukturunun yaradılması, rabitə xidmətinin təşkili, eyni zamanda azad edilmiş ərazilərin iqtisadi dayanıqlığının təmini, əhalinin məskunlaşması və məşğulluq məsələləri ilə bağlı görülən işlər üzrə məruzələr dinlənilib.

Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş müvafiq əraziləri üzrə xüsusi nümayəndəliklərinin yerlərdəki fəaliyyəti çərçivəsində görülən işlər və 2024-cü ildə qarşıda duran planlar barədə xüsusi nümayəndələr tərəfindən məlumatlar verilib.

Qərargahın rəhbəri işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma layihələrinin "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq keyfiyyətli, operativ, kompleks yanaşma tətbiq etməklə əlaqələndirilmiş şəkildə icrasının vacibliyini xüsusi vurğulayıb.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində zəruri tədbirlər müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

# Azərbaycanla Yunanıstan arasında ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlıq əlaqələri müzakirə edilib

Martın 13-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Yunanıstanın ölkəmizdə səfərdə olan xarici işlər nazirinin müavini Aleksandra Papadopulunu qəbul edib.



Bu barədə AZƏRTAC-a Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, görüşdə tərəflər Azərbaycanla Yunanıstan arasında ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlıq əlaqələrini, eləcə də Azərbaycan-Ermənistan normallaşma prosesi və regional məsələləri müzakirə ediblər. İki ölkə rəhbərləri arasında artan təmasların, XİN-lər arasında keçirilmiş siyasi məsləhətləşmələrin münasibətlərin inkişaf perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətli olduğunu diqqətə çatdırıblar. Tərəflər siyasi, iqtisadi, ticarət, energetika, kənd təsərrüfatı, turizm, humanitar və digər sahələrdə münasibətləri inkişaf etdirməyin və xalqlarımızın mənafelərinə uyğun əməkdaşlığı genişləndirməyin vacibliyini vurğulayıblar.

Ceyhun Bayramov ötən ilin dekabr ayında həmkarı, Yunanıstanın xarici işlər naziri ilə keçirilmiş görüşü məmnunluqla xatırlayıb, siyasi təmaslarla yanaşı, Azərbaycan Hökuməti ilə Yunanıstan Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın işinin intensivləşməsinin zəruriliyini qeyd edib.

Tərəflər, həmçinin iki ölkə arasında energetika sahəsində əməkdaşlığın əhəmiyyətini təsdiqləyərək, "Cənub qaz dəhlizi", Trans-Adriatik boru kəməri, eləcə də Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun müstəsna əhəmiyyətini diqqətə çatdırıblar. Bu xüsusda, iki ölkə arasında enerji sahəsində uğurlu əməkdaşlığın regionun inkişafına və sabitliyinə töhfə verəcəyi, qarşılıqlı maraq doğuran digər sahələri də əhatə edəcəyinə əminlik ifadə olunub.

Nazir Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə yaranmış yeni reallıqlar, antiterror tədbirlərini şərtləndirən amillər, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesi, habelə sülh müqaviləsi gündəliyi, azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri istiqamətində atılan addımlar barədə ətraflı məlumatlandırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir müavininin ölkəmizə səfəri çərçivəsində onun və Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Fariz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyətlərinin iştirakı ilə Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələr zamanı iki ölkə arasında ikitərəfli, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq mövzuları müzakirə olunub.

# Komitə iclasında 6 məsələyə baxılıb

Martın 13-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda 6 məsələ müzakirə edilib.

Birinci məsələnin Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) olduğunu deyən komitə sədri Tahir Mirkişili bildirib ki, sənəddə vergi orqanlarında xidmət edənlərin hüquqi vəziyyətinin daha da təkmilləşdirilməsi, işə qəbul qaydalarının daha da şəffaflaşması, eyni zamanda bu orqanlarda çalışanların stimullaşdırılması, sosial müdafiəsi ilə bağlı məsələlərin müasir tələblərə və təcrübəyə uyğun tənzimlənməsi təklif olunub.

Sənəddə təklif olunan dəyişikliklərin əsas istiqamətlərini diqqətə çatdıran Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva işçilərin sosial müdafiəsi və maddi təminatı ilə bağlı tənzimləmələrdən söz açıb. O bildirib ki, layihədəki dəyişikliklərin ikinci böyük istiqamətində vergi orqanlarında xidmətə qəbulla bağlı məsələlər tənzimlənir. Xidmət rəisi sənəddə təsbit olunan vergi orqanlarında vəzifəli şəxslərə xüsusi rütbələrin verilməsi, onların vəzifədə irəli çəkilməsi, başqa vəzifəyə keçirilməsi, rotasiyası qaydalarından, həvəsləndirmə və tənbeh tədbirlərindən bəhs edib, vergi işçilərinin iş rejiminin optimallaşdırılması, xidmətdə olmanın yaş həddi kimi digər zəruri tənzimləmələr barədə danışıb. Layihə birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Komitə sədri Tahir Mirkişili Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. O bildirib ki, qanun layihəsi sənaye, texnologiyalar parkı sahəsində vergi, sosial sığorta, gömrük tarifi və reklam qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Gündəliyin 3-cü məsələsi olan "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirilib ki, sənəd ölkəmizdə insanların həyat və sağlamlığının, dərman vasitələrinin istehlakçılarının hüquqlarının qorunması, dərmanların dövlət qeydiyyatı prosedurunun optimallaşdırılması, tələb edilən sənədlərin sayının azaldılması və sahibkarlıq subyektləri üçün prosesin sadələşdirilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Gündəliyin 4-cü məsələsi olan Mülki Məcəllədə və "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov təqdim edib.

Layihə birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Gündəliyin son iki məsələsi olan "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə və "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin ikinci oxunuşu haqqında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli məlumat verib.

Yekunda bu qanun layihələri də ikinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Hücum diplomatiyasından hücum taktikasına



Azərbaycan 30 ilədək müddətdə beynəlxalq hüquqa sığındı, ədalətə inandı.

İnandı ki, "demokratik dünya", "dünya ictimaiyyəti" Azərbaycanın haqlı mövqeyini müdafiə edəcək, təcavüzkar Ermənistanın torpaqlarımızdan çıxarılması üçün müvafiq təsir və təzyiq göstərəcəkdir.

İnandı ki, dünyanın ən böyük, ən güclü və sözükeçən təşkilatı sayılan BMT-nin Təhlükəsizlik Şurası, Minsk qrupu və həmsədr dövlətlər aldıqları mandatın müqabilində vəzifə və vicdani borclarını layiqincə yerinə yetirərlər.

**Bəlkə də inanmırdı, inanmaq istəyirdi.**

*Çünki həmsədr dövlətlərdən biri olan ABŞ 1992-ci ildə təcavüzkarı deyil, işğala məruz qalan tərəfi - Azərbaycanı cəzalandıraraq Azadlığı Müdafiə Aktına bədnam 907-ci düzəlişi etdi, ölkəmizə birbaşa yardımı dayandırdı.*

*Digər həmsədr dövlət sayılan Rusiya isə Ermənistana iki dəfə, hər dəfə bir milyard dollarlıq silah-sursat bağışladı.*

*Fransa isə bitərəf qalacağına söz versə də, əməldə ermənidən betər ermənilik etdi və Azərbaycana qarşı düşmənçilik hərəkətlərini indi də davam etdirir.*

**Bir həqiqəti də qeyd edək ki, 90-cı illər Azərbaycanının gücü və imkanları münaqişənin yalnız sülh yolu ilə həllinə çatırdı.**

*Münaqişə ilə bağlı keçirilən bütün görüş və tədbirlərdə Azərbaycan tərəfi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən danışır, Ermənistanın Azərbaycan ərazisinin 20 faizini necə işğal etdiyini söyləyir, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini xatırladır, təcavüzkarın ərazilərimizdən çıxarılması üçün zəruri təsir və təzyiq tədbirlərinin görülməsini xahiş edirdi.*

**Bu, Ulu Öndər Heydər Əliyevin dövründə də belə idi, cənab İlham Əliyev dövlət başçısı seçiləndən sonra da bu sayaq davam etdi.**

*Lakin Azərbaycanın hər iki rəhbəri bütün görüş və tədbirlərdə xüsusi olaraq vurğulayırdılar ki, əgər münaqişə sülh yolu ilə həllini tapmasa, Azərbaycan digər vasitələrlə öz torpaqlarını işğaldan azad edəcəkdir!*

**Görünür, nə Ermənistan, nə ATƏT-in Minsk qrupunun həmsədrləri, nə də dünya erməniliyi inanırdılar ki, Azərbaycan müharibə yolu ilə torpaqlarını işğalçılardan təmizləyər!**

Odur ki, hərə öz işində idi:

- Ermənistan ərazilərimizi talayıb, yandırıb, dağıdaraq xarabalıqlara çevirir;
- ATƏT-in Minsk qrupu sonradan lətifəyə çevrilən səfərlər və görüşlər keçirir;
- Beynəlxalq hüquq iflic vəziyyətdə yatır;
- "Dünya ictimaiyyəti", beynəlxalq qurum və təşkilatlar isə ən yaxşı halda müəyyən bəyanat və açıqlamalarla kifayətlənirdi...

Azərbaycan da öz işində idi:

- Güclənir!
- Ordu qurur!
- Hazırlaşırdı!

**İlk cəsarətli və qətiyyətli dönüş cənab İlham Əliyevin ölkəyə rəhbərliyə başladığı ilk illərdə "hücum diplomatiyası"na keçidlə başladı!**

**Əslində, bu həm də hücum taktikasının başlanğıcı sayılır.**

*Azərbaycan bir tərəfdən sülh danışıqlarını aparır, münaqişənin sülh yolu ilə həllinə "inandığını" göstərir, eyni zamanda problemin "digər vasitələrlə" həllinə imkan yaradacaq addımlar ataraq güc toplayırdı.*

❖ ❖ ❖

Bu il yanvarın 10-da Azərbaycan Prezidenti cənab İlham Əliyevin yerli televiziya kanallarına ənənəvi müsahibəsində bu barədə də geniş və ətraflı danışıldı, jurnalistlərin bütün sualları konkret faktlar əsasında cavablandırıldı.

**Bu həm də cənab İlham Əliyevin ölkəyə rəhbərliyinin 20 ilinin yığcam hesabatı da sayıla bilər.**

Azərbaycanı işğaldan Zəfərə çatdıran bu çətin, uzun, eyni zamanda möhtəşəm və mübarizələrlə dolu yolun necə keçirildiyinə, hansı problem və məsələlərin həll olunduğuna, hansı əngəl və maneələrin dəf edildiyinə birlikdə nəzər salaq.

*Əvvəlcə qeyd edək ki, Prezident İlham Əliyevin 20 illik fəaliyyətində qazandığı bütün uğur və qələbələri, onların ən uca zirvəsi sayılan möhtəşəm Qarabağ Zəfərini təkcə bu dövrlə məhdudlaşdırmaq yanlış olardı.*

Bütün nailiyyətlərin əsasında Heydər Əliyev siyasi kursuna sədaqət və onun uğurlu davamı, 1993-2003-cü illərdə yaradılan möhkəm təməl də dayanır!

*İlham Əliyevin böyüklüyü həm də bunları qoruyub saxlamaqla yanaşı, daha da inkişaf etdirməsi, yeni mərhələyə yüksəltməsidir!*

❖ ❖ ❖

**İlham Əliyevin hakimiyyətə gəldiyi dövrdə əsas milli ideyamız işğal altındakı torpaqların azad edilməsi idi!**

Lakin, qeyd etdiyimiz kimi, həmin dövrdə Azərbaycan hərbi vasitələrlə məqsədə çatmaq imkanında deyildi.

*Əvvəla,* Minsk qrupu bu vəzifəni öhdəsinə götürmüşdü və məsələni, guya, sülh yolu ilə çözəcəkdi. Onun "xidməti"ndən imtina isə yanlış olardı...

*İkincisi,* sülh yolundan vaz keçərək hərbi vasitəyə əl atmaq Azərbaycana baha başa gələ bilərdi...

*Üçüncüsü,* müharibə etmək üçün ən əvvəl böyük iqtisadi imkan, yaxşı silahlanmış və təlim görmüş ordu, beynəlxalq qurum və təşkilatlarda Azərbaycanın sözünü deyib, mövqeyini müdafiə edəcək dostların olması və digər məsələlər vacib sayılırdı.

Həmin dövrün özünəməxsus problemləri isə bambaşqa idi...

*Bunu biz cənab İlham Əliyevin birinci prezidentliyi dövrünün başlanğıcında xalqa verdiyi vədlərin məzmunundan da aydın görürük:*

- Regionların və sahibkarlığın sürətli inkişafına nail olunacaq;
- Bir nəfər də çadır şəhərciyində yaşayan qaçqın və məcburi köçkün qalmayacaq;
- Günün bütün saatlarında Azərbaycanın ən ucqar kəndində belə elektrik enerjisi olacaq;
- İşsizlik ən minimal həddə endiriləcək;
- Yoxsulluq səviyyəsi aşağı salınacaq;
- Bir qarış torpaq belə kimsəyə güzəştə gedilməyəcək, ölkəmizdə ikinci erməni dövlətinin yaradılmasına yol verilməyəcək!

Təkcə bu sadaladıqlarımız 20 il əvvəlki Azərbaycanın durumu barədə aydın təsəvvür yaradır!

*İlham Əliyevin eyni vaxtda bütün sahələrin inkişafına diqqət yetirməsi, problemləri vaxt itirmədən həll etməsi zəruri dönüşün yaranmasına da səbəb oldu!*

Və məqsədinə çatdı da!

**Məhz görülən işlər, vaxtında və qətiyyətli şəkildə atılan addımlar sayəsində kifayət qədər güc toplayan Azərbaycan hücum taktikasına keçə, istək və məqsədinə öz iradəsi və imkanları sayəsində nail ola bildi!**

Beləliklə:

- Tarixinin ən qüdrətli Azərbaycanı yaradıldı!
- Çoxsaylı şəhərcik və yaşayış kompleksi inşa edilərək qaçqın və məcburi köçkünlərin həyat şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırıldı!
- Hər il minlərlə yeni iş yeri yaradılaraq işsizlik və yoxsulluq səviyyəsi 40 faizdən 5 faizə endirildi!
- Yeni, vətənpərvər gənclər nəsli tərbiyə edildi, ölkədə idmanın yüksəlişinə nail olundu, Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanındı!
- Yeni nəsil gənclərin də iştirak etdikləri qüdrətli ordu yaradıldı və o, ən yeni texnologiyalara əsaslanan silahlarla silahlandırıldı, yeni taktika və strategiya tətbiq olundu!
- Xalqın milli birliyi ən yüksək səviyyəyə çatdırıldı!
- Hücum diplomatiyası tətbiq edilərək beynəlxalq qurum və təşkilatlarla iş gücləndirildi, Azərbaycanın haqq işini müdafiə edən dostlarının sayı əhəmiyyətli dərəcədə artırıldı!
- Müstəqil, yalnız milli və dövləti maraqlara söykənən siyasət yeridildi, xalqın sosial rifahının əsaslı şəkildə yüksəldilməsinə nail olundu!
- Azərbaycanın beynəlxalq nüfuzu ən yüksək səviyyəyə qaldırıldı, özü isə Cənubi Qafqazın ən güclü dövlətinə və söz sahibinə çevrildi!

**Görülən bütün bu işlər, vaxtında və qətiyyətli şəkildə atılan addımlar hücum taktikasına keçən Azərbaycana məqsəd və hədəflərinə öz gücü və imkanları hesabına çatmağa şərait yaratdı!**

**20 ilin ən mühüm yekunu isə 44 günlük Zəfər müharibəsində torpaqların işğaldan azad edilməsi, əsas milli hədəfə çatmağımız oldu!**

❖ ❖ ❖

**Artıq bu gün Azərbaycanda yeni dövrün yeni vəzifələrindən danışılır.**

*Prezident İlham Əliyev təkcə Azərbaycan torpağını "dəmir yumruğ"u ilə erməni işğalçılarından təmizləmədi...*

**Həm də böyük məharət və səbirlə, hesablanmış dəqiq addımlar sayəsində 2023-cü ilin 23 aprelində Azərbaycanın ərazi bütövlüyünü təmin etdi!**

*Daha sonra Ermənistanın üçtərəfli Bəyanatın şərtlərinə əməl etmədiyini görərək sentyabrın 19-20-də qısamüddətli lokal xarakterli antiterror tədbirləri keçirərək bir nəfər mülki vətəndaşa belə xətər toxunulmadan Ermənistanın Qarabağ ərazisindəki 15 min nəfərlik ordusunu təslim və tərk-silah edərək ölkə ərazisindən tamamilə çıxardı!*

**Bununla da Azərbaycanın dövlət suverenliyi və Konstitusiya əsasları tam təmin edildi.**

**"Dəmir yumruğ"un bu unikal əməliyyatları nəticəsində ədalətə olan inam da, ədalətin özü də bərpa edildi!**

*Əslində, çoxdan həsrətində olduğumuz ədaləti öz rəhbərinə güvənən və daim onun ətrafında sıx birləşən Azərbaycan xalqı əzmi, qeyrəti və qüdrəti ilə bərpa etmiş oldu!*

- "Onu da biz hamımız bilməliyik ki, ədalət özözünə gəlmir, ədaləti sən gərək təmin edəsən" - cənab İlham Əliyevin sözüdür!
- "Müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlanır" - Bu da Prezidentimizin sözüdür.
- İlham Əliyevdən daha bir sitat: "Əlbəttə, hamımız xoşbəxtik ki, biz bu tarixi günləri gördük, yaşadıq və bu tarixi Zəfər Azərbaycan xalqının, dövlətinin tarixində əbədi qalacaq".

❖ ❖ ❖

Bəs yeni dövr nədən və necə başlamalıdır?

Maraqlı sualdır, deyilmi?

"Prezident seçkiləri yeni dövrün başlanğıcı olmalıdır!" - jurnalistlərin suallarını cavablandıran dövlət başçısı İlham Əliyev bu fikrini də dəlillərlə əsaslandırdı!

**Məntiqlə həm tarixi dövrülük baxımından (işğaladək olan dövr, işğal dövrü və işğaldan sonrakı dövr), həm də tariximizdə buna bənzər Zəfərin olmaması, üstəlik, belə parlaq qələbənin yaratdığı və yaradacağı nəticələr sarıdan yeni dövrə başlarkən hər şey də yenilənməlidir.**

*Müstəqillik dövründə ilk dəfə olaraq azad və demokratik seçkilər Azərbaycanın bütün ərazisində keçirildi!*

Əslində, azad edilmiş ərazilərdə ilk dəfə prezident seçkilərinin keçirilməsi həm arzuolunan, həm doğru, həm də ədalətli qərar idi!

Digər bir məqam isə ondan ibarətdir ki, cənab İlham Əliyevin Azərbaycan rəhbərliyinə gəlişinin 20 ili də tamam olmuşdur.

**Bu 20 il başlıca olaraq milli ideyanın gerçəkləşdirilməsinə xidmət etmiş və ən yüksək nəticə qazanılmışdır.**

**Artıq baş hədəf dəyişib!**

*Odur ki, növbəti dövrün yeni hədəflərinə çatmaq üçün yeni dövrə yeni seçkilərlə və yeni milli ideya ilə başlanılması daha məqsədəmüvafiq sayıldı.*

Belə ki, jurnalistlərə müsahibəsində cənab İlham Əliyev çox gərəkli bir məqama da toxunmuşdur:

*"Biz nə etmişiksə, etmişik, xalq da bunu qiymətləndirir və qiymətləndirəcək. Ancaq bu tarixi Zəfəri də bundan sonra daim istismar etmək düzgün olmaz. Çünki, birincisi, siyasi nöqteyi-nəzərdən düzgün olmaz. İkincisi, cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdır".*

**Dövlət başçısının "sakitləşmə ovqatı" ilə bağlı xəbərdarlığı heç də əbəs deyil!**

**Azərbaycana qarşı təhdidlər, qərəzli yanaşmalar və düşmənçilik hərəkətləri hələ də ara vermir.**

Bundan sonra da davam edəcəyi isə heç kəsdə şübhə doğurmur!

- Əvvəla, Azərbaycan öz Zəfəri ilə bəzi ölkələr üçün müəyyən fəsadlar doğurmuşdur və bu, onlara hələ də baha başa gəlir.
- İkincisi, dünya miqyasında bir çox layları tərpətmişdir və bu, bir çoxlarının xoşuna gəlməmişdir.

**Ermənistanı silahlandıranlar, onlara yersiz və əsassız ümid verənlər bu xəstə millətdə belə bir güman yaradırlar ki, guya, onlar nə vaxtsa yenidən Qarabağı bizdən qopara bilərlər.**

Həm də istisna deyil ki, bu xülya Ermənistan cəmiyyətində, o cümlədən rəhbər qruplaşma daxilində get-gedə daha da geniş yayılacaqdır.

**Bu reallıq yeni dövrün yeni hədəflərindən birini zəruri edir.**

**Bu barədə Prezident İlham Əliyev çox dəqiq və yığcam şəkildə söyləyib:**

*"Biz heç vaxt sakitləşə bilmərik. Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürəkdirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq "Bastion" maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik".*

❖ ❖ ❖

**Dövlət başçısının müsahibə zamanı bir sıra ünvanlara dəqiq və açıq mesajları da oldu.**

*Söhbət əsnasında cənab İlham Əliyev ilk dəfə olaraq çox aydın və maraqlı, eyni zamanda tutumlu termin işlətdi:*

*"Ermənistan plyus qruplaşması".*

Artıq kimsəyə sirr deyil ki, Azərbaycanın Qarabağ problemini hərbi Zəfərlə, öz gücü ilə və birdəfəlik həll etməsi bəzilərinin xoşuna gəlməyib!

Heç gəlməsin də!

Həmin "bəziləri"nin bir qismi açıq, bir qismi həyasızcasına açıq, bəzisi gizli, bir başqası isə üstüörtülü və ehtiyatla erməniləri müdafiə edir, kömək göstərir, beynini (olmayan beynini) boş xülyalarla doldurur!

**Kimin necə davranıb, necə hərəkət etməsindən asılı olmayaraq, İlham Əliyev kimi müasir dövrün ən nəhəng siyasətçilərindən birinə hər şey gün kimi aydındır.**

*Ancaq İlham Əliyev çox səbirlidir, diplomatik ifadələrdən ustalıqla və yerində istifadə etməyi yaxşı bacarır.*

Prezidentimizin həmin mesajları ən əvvəl "Ermənistan plyus qruplaşması"na ünvanlanıb!

Necə deyərlər, qızım sənə deyirəm, gəlinim sən də eşit!

**O mesajlar hansılardır!**

- Biz təkcə ədalətli deyil, həm də haqlıyıq və haqlılığımızı istənilən tədbirdə və auditoriyada sübut edəcək kifayət qədər faktımız və əsaslarımız var!

Qarabağ məsələsində də biz haqlı tərəf kimi qalib gəldik!

- Biz müstəqil ölkəyik!

Əgər müstəqil dövlətiksə, niyə istədiyimiz və bildiyimiz kimi hərəkət etməməliyik?

Əslində və həmişə olduğu kimi də, ilk növbədə, milli maraqlarımızı müdafiə və təmin etməliyik və edirik də!

- Ən əsası, heç kəsin sözü ilə durub oturası deyilik!

Əgər kimsə hesab edirsə ki, bizi idarə edəcək, möhkəm yanılır!

- Biz heç bir ölkənin daxili işlərinə qarışmırıq və heç kəsin daxili işlərimizə burun soxmasına heç zaman yol verməyəcəyik!
- Bizimlə düşmənçilik edənlərin aqibəti yaxşı olmur!

Ölkəmizdə separatizm toxumu cücərdən, bizə qarşı qanlı müharibə aparan, Xocalı soyqırımı və digər vandallıqları törədən, şəhər və kəndlərimizi xaraba qoyan separatçılar, canilər, əli xalqımızın qanına batanlar, Qarabağa ixrac edilən "liderlər", "nazirlər" və digərləri Bakıda layiq olduqları yerdə oturaraq "çay içirlər".

Yerləri genişdir və yanlarına nə vaxtsa "qonaq" gələnlər də olacaq!

Qoy onlara baxıb separatizm və revanşizm xülyasına düşənlər özləri üçün müvafiq nəticə çıxarsınlar!

- Azərbaycan müharibə qurtaran kimi sülh müqaviləsinin bağlanmasını istəyib və bununla əlaqədar beynəlxalq hüquqa söykənən beş prinsip əsasında öz təkliflərini Ermənistan tərəfinə göndərib.
- Ermənistanın müxtəlif bəhanələr və şərtlərlə sülh müqaviləsinin imzalanmasını uzatması özünə ziyandır.
- Müqavilə zəmanətçilərsiz də imzalana bilər və biz onlara ehtiyac duymuruq.
- Əgər Ermənistan kiməsə arxayın olaraq sülh müqaviləsini imzalamasa, dalanda qalan ölkə özü olacaqdır!
- Biz qalib tərəfik və şərtlərimizdən geri durmayacağıq!
- Qarabağ probleminin 30 il sürməsinin səbəbi münaqişənin beynəlxalq müstəviyə çıxarılması oldu.
- ATƏT-in Minsk qrupu problemi həll etməyə yox, uzatmağa, işğalı legitimləşdirməyə, bizi mövcud reallıqlarla barışdırmağa çalışırdı.
- İndi yeni reallıqlar var və bunu biz "dəmir yumruğ"umuzla yaratmışıq!
- Biz Ermənistan-Azərbaycan münasibətlərini yenidən geosiyasi mövzuya çevirmək fikrində deyilik və buna yol verməyəcəyik!
- Azərbaycan heç bir sanksiyadan qorxmur!

*Əvvəla,* Azərbaycan elə bir iş tutub addım atmır ki, onun əməlləri sanksiyaya tuş gəlsin.

*İkincisi,* artıq Qarabağ problemini öz gücümüzə həll etmiş, bədxahlarımızın əlindən həmin rıçağı çıxarmışıq və heç bir hədədən də qorxmuruq!

*Üçüncüsü,* biz bütün dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan, beynəlxalq hüquqa söykənən əməkdaşlıqlar qurur, müqavilələr bağlayırıq.

*Dördüncüsü,* bizə "xox" gəlmək istəyən Avropa İttifaqının dövlətləri ilə tərəfdaşlıq edir, onlara son dərəcə ehtiyac duyduqları mavi qaz verir və "yaşıl enerji" ixracına hazırlıq görürük!

Ən nəhayət, əgər kimsə belə bir səhvə yol verərsə, nə etsə, özünə edəcəkdir, Azərbaycana yox!

**Çünki bizim qazımızın Avropaya nəqlinin kəsiləcəyi təqdirdə daha çox bundan Avropa dövlətlərinə ziyan dəyəcəkdir!**

*Yox, əgər Avropa Parlamentində oturanlar qərəzlərini və inadlarını yerinə yetirsələr, bizimlə uzunmüddətli kontraktlar imzalayan şirkətlər 100 milyonlarla, bəlkə də milyardlarla avro dəyərində cərimələr ödəməli olacaqlar!*

**Məsuliyyətsiz açıqlamalar verənlər bunları istəyirlərsə, buyursunlar!**

❖ ❖ ❖

Bu il Qarabağda və Şərqi Zəngəzurda nəhəng infrastruktur layihələrinin icrası davam etdiriləcəkdir!

*Azərbaycan öz gücü, öz vəsaiti hesabına evlər tikir, yollar, tunellər, dəmir yolları çəkir, su anbarları, elektrik stansiyaları, xəstəxanalar, uşaq bağçaları, məktəblər inşa edir, mərhələlərlə keçmiş məcburi köçkünləri geriyə, rahat və hər cür şəraiti olan doğma yurda qaytarır!*

**Bu prosesdə iştirak etmək istəyən sahibkarlar, iş adamları və investorlar üçün yol açıqdır!**

❖ ❖ ❖

Azərbaycan "hücum taktikası"na çoxdan keçib...

Hələ 44 günlük Vətən müharibəsindən də öncə!

"Hücum taktikası" deyəndə təkcə hərbi əməliyyatlardakı hücum nəzərdə tutulmurdu!

**Bu, hücum diplomatiyasının yeni, daha yüksək mərhələsidir!**

**Məhz Azərbaycanın iqtisadi gücü, siyasi nüfuzu, dünyadakı yeri və mövqeyi, gördüyü və görəcəyi işlər belə bir taktika tətbiq etməyə imkan verir.**

*Azərbaycan onun üstünə gələnlərin, qeyri-dost, qərəzli münasibət bəsləyənlərin, ədalətsizliyə yol verənlərin, təhdid və təsir göstərmək istəyənlərin qarşısında müdafiə olunmur, özünə bəraət qazandırmağa çalışmır, haqsız hücumları "mehribanlıq"la dəf etməyə çalışmır!*

**Azərbaycan öz ədalətli mövqeyini beynəlxalq hüquqa, öz gücünə və imkanlarına arxalanaraq müdafiə edir!**

*Həm də təkcə "passiv müdafiə" olunmur!*

**Yalançıları, qərəzliləri, ədalətsizləri ifşa edərək istəyinə çatır!**

**Bütün bunlara isə gücü və imkanları çatır!**

❖ ❖ ❖

Bu gün İlham Əliyev Azərbaycanı yeni yolla yeni hədəflərə doğru aparır!

- Bu yol həm də Heydər Əliyev yolunun davamı olan İlham Əliyev yoludur!
- Bu yol bütövləşən, qüdrət və söz sahibinə çevrilən Azərbaycanın yeniləşən yoludur!
- Bu yol Böyük qayıdışa gedən, 30 illik yurd həsrətinə son qoyan, "məcburi köçkün" adı üzərindən xətt çəkən, insanları doğma yurda və xoşbəxtliyə qovuşduran yoldur!
- Bu yol Azərbaycanın Avropanı "yaşıl enerji" ilə təchizatını təmin edən yoldur!
- Bu yol bütün mənfur niyyətləri, qərəzli xislətləri məhv edən yoldur!
- Bu yol Ulu Öndərimizin arzularının çiçəkləndiyi, istəklərinin reallaşdığı yoldur!
- Bu yol Azərbaycan xalqını yüksək rifaha, xoş və xoşbəxt günlərə qovuşduran yoldur!

Bizi yeni hədəflərə çatdıracaq yolumuz mübarək olsun!

**Bəxtiyar SADIQOV**

# Dostluqdan müttəfiqliyə

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana səfəri iki ölkənin münasibətlərinin inkişafını yeni mərhələyə daşımaqla yanaşı, dünyaya verilən mühüm mesajlarla əlamətdar oldu.

Prezidentlərin açıqlamaları göstərdi ki, sürətlə dəyişən dünya nizamında türk dövlətləri öz uğurları və əlaqələrin inkişafı ilə bütün türk dünyasının yüksəlişinə töhfə verməyi prioritet istiqamətlər kimi müəyyən ediblər. Ona görə bu səfər həm də türk dünyasının mühüm siyasi hadisəsinə çevrildi.

### Münasibətlərin kökündə ortaq dəyərlər dayanır

Azərbaycan və Qazaxıstanın münasibətlərinin məğzində əlbəttə ki, hər iki dövlətin xalqlarının ortaq mənşəyə, eyni soy-kökə malik olması kimi mühüm amillər dayanır. Ərazisinin böyüklüyünə və əhalisinin sayına görə Orta Asiyanın ən böyük türk dövlətlərindən olan Qazaxıstanı Azərbaycanla mənəvi ortaqlıqdan başqa digər dəyərlər də bağlayır. Hər iki türk dövləti gələcək perspektivlərlə bağlı oxşar inkişaf strategiyasına malikdir. Eyni zamanda hər iki dövlət öz inkişafının aktiv fazasındadır. İri neft-qaz ixracatçısı olan Azərbaycan və Qazaxıstan qlobal enerji təhlükəsizliyinin real təminatçıları rolunda çıxış edirlər. Bütün bunlarla yanaşı, hər iki ölkə "Şərq-Qərb" nəqliyyat dəhlizinin iştirakçısı olmaqla, bu istiqamətdə marşrutların inkişafına mühüm töhfələr verir, beynəlxalq məsələlərdə ortaq mövqe nümayiş etdirir, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində əməkdaşlıq edirlər.

Bu günlərdə Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri isə iki türk dövləti arasında strateji müstəviyə qədəm qoymuş qarşılıqlı münasibətlərin daha da inkişafı üçün geniş imkanların olduğunu göstərdi. Onu da qeyd edək ki, son il yarım ərzində Prezident İlham Əliyev Qazaxıstana dörd dəfə səfər edib. Qazaxıstan Prezidenti isə bu dövrdə üçüncü dəfə ölkəmizə gəldi. Səfərlərin dinamikası da təsdiqləyir ki, Azərbaycan-Qazaxıstan münasibətləri həm strateji tərəfdaşlıq, həm dostluq, həm qardaşlıq, həm də mehriban qonşuluq çərçivəsində daha da genişlənməkdədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, qarşılıqlı səfərlərimizin dinamikası çox illüstrativdir və bu, münasibətlərə yeni dinamizm verildiyini göstərir: "Qazaxıstan və Azərbaycan iki qardaş dövlətdir. Xalqlarımız ictimai-siyasi formasiyadan asılı olmayaraq, uzun əsrlər boyu sülh, qardaşlıq, əməkdaşlıq şəraitində yaşayır. İki müstəqil dövlət olaraq isə artıq 30 ildən çoxdur ki, həm beynəlxalq strukturlarda, həm də ikitərəfli formatda fəal qarşılıqlı fəaliyyət göstərir. Son vaxtlar qarşılıqlı səfərlərimizin dinamikası çox illüstrativdir və bu, münasibətlərə yeni dinamizm verildiyini göstərir".

### Qardaş dəstəyi

Qazaxıstan dövləti hər zaman Azərbaycanın haqlı mövqeyinə dəstək göstərib. Bu, Vətən müharibəsindən əvvəl də belə olub, sonra da. Ermənistanın da təmsil olunduğu KTMT-də Azərbaycanın ən yaxın tərəfdaşlarından biri Qazaxıstandır. Hələ 2020-ci ilin dekabr ayında Prezident İlham Əliyevə doğum günü münasibətilə göndərdiyi təbrik məktubunda Qazaxıstan Prezidenti qeyd edirdi: "Sizin güclü rəhbərliyinizlə qardaş Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq öz dövlətinin ərazi bütövlüyünü bərpa etməyi bacardı, sosial-iqtisadi inkişafda və milli birliyin möhkəmlənməsində sanballı uğurlar qazandı".



Mətbuata bəyanatında Prezident İlham Əliyev bu məsələyə toxunaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etməkdə Azərbaycana göstərdiyi daimi dəstəyə görə Qazaxıstana minnətdarlığını ifadə etdi. Bununla yanaşı, Qazaxıstan dövləti Azərbaycana ərazilərinin bərpasında da qardaş dəstəyini göstərir və martın 12-də hər iki ölkənin Prezidentinin iştirakı ilə açılışı olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşası bunun bariz nümunəsidir. Kasım-Jomart Tokayevin şəxsi qərarı ilə belə bir mərkəzin inşası Prezident İlham Əliyev və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Dövlətimizin başçısının dediyi kimi, bu, Qazaxıstanın Azərbaycana qardaş köməyidir, bu, Qazaxıstanın Azərbaycana hədiyyəsidir və azad edilmiş ərazilərin bərpasına dəstəyidir. Bu mərkəz həm də Azərbaycan-Qazaxıstan qardaşlığının mərkəzi olacaq. Qazaxıstan Prezidenti də səfərdən əvvəl "Azərbaycan" qəzetinə verdiyi müsahibədə Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının, qarşılıqlı dəstəyinin daha bir simvoluna çevriləcəyini deyib.

Qazaxıstan Prezidentinin ölkəmizə səfəri zamanı Füzuli və Şuşaya getməsi həm də qardaş dövlətin Azərbaycanın zəfərinə və haqq işinə dəstəyinin ifadəsinə çevrildi.

### Əməkdaşlıq gündəliyi zəngindir

Azərbaycan-Qazaxıstan əməkdaşlığının gündəliyi olduqca zəngindir. Bu istiqamətdə potensial böyükdür. Martın 11-də prezidentlərin iştirakı ilə keçirilən Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclasında qeyd edildiyi kimi, gündəlikdə iqtisadi-ticari və investisiya əməkdaşlığının inkişafı, neft-qaz, bərpaolunan enerji mənbələri, nəqliyyat-logistika sahələrində, rəqəmsal kommunikasiyalar, həmçinin mədəni-humanitar sahələrdə əməkdaşlıq kimi məsələlər var. Bu sahələrdə əlaqələrin inkişafı isə yalnız Azərbaycanla Qazaxıstan arasında deyil, bütün türk coğrafiyasında, TDT çərçivəsində əməkdaşlığın böyüməsinə mühüm töhfələr verəcək. Səfər zamanı imzalanan 10 sənəd də əlaqələrin inkişafının geniş və əhatəli olduğunu göstərir.

Azərbaycanla Qazaxıstan oxşar keçmişə, bu günə və sabaha malikdir. Ən əsası, iki dövlət ortaq milli dəyərləri bölüşür və bütün bunlar münasibətlərin məzmununda öz əksini tapır. Azərbaycan-Qazaxıstan münasibətlərinin səviyyəsini Prezident İlham Əliyevin bir cümləsi ilə dəqiq ifadə edə bilərik: "Qazaxıstan bizim etibarlı dostumuz və müttəfiqimizdir".

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan və Qazaxıstan əməkdaşlığın yeni dövrünə qədəm qoyur

"Azərbaycan-Qazaxıstan dostluğu və müttəfiqliyi ildən-ilə möhkəmlənir və münasibətlər artıq strateji tərəfdaşlığa çevrilir. Hər iki ölkənin Prezidenti Kasım - Jomart Tokayev və İlham Əliyev dövlətlərin milli maraqlarına, xalqların birliyinə və xoşbəxtliyinə yönəldilən əməkdaşlığın genişləndirilməsində israrlıdırlar. Çünki bu münasibətlər tarixi ənənələrə, ali dəyərlərə, ölkələrin inkişafına, sülhün və əmin-amanlığın təmin olunmasına xidmət edir".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat bildirib ki, qarşılıqlı səfərlərin sayı artdıqca dövlətlər bir-birinə daha da yaxınlaşır, problemlər, vacib olan iqtisadi-siyasi məsələlər öz həllini tapır və yeni layihələrin əsası qoyulur: "Prezident İlham Əliyev həmkarı Kasım - Jomart Tokayevlə birgə mətbuata bəyanatında səfərlərin əhəmiyyətini yüksək qiymətləndirərək deyib: "Bizim üçün qardaş ölkə, strateji tərəfdaş və müttəfiq olan Qazaxıstanın Prezidentinin dövlət səfərinə böyük əhəmiyyət veririk. Münasibətlərimizin dinamikası qarşılıqlı səfərlərimizin xronologiyasından aydın görünür. Son il yarım ərzində mən Qazaxıstana dörd dəfə səfər etmişəm, həmçinin bu dövrdə Qazaxıstanın Prezidenti üçüncü dəfədir ki, ölkəmizə gəlir". Əlbəttə ki, bu səfərlərin hər biri böyük əhəmiyyətə malikdir".

Komitə sədri görüşdə çox mühüm sənədlərin imzalandığını, qarşılıqlı fəaliyyət məsələlərinin müzakirə olunduğunu, dövlətlərin milli maraqlarına uyğun iqtisadi, siyasi, mədəni, təhlükəsizlik və regional məsələlərin gündəmə gətirildiyini və həll yollarının araşdırıldığını qeyd etdi. Bildirdi ki, dövlətimizin rəhbəri Qazaxıstan Prezidentinin Azərbaycana verdiyi dəstəyi yüksək qiymətləndirdi. Qazaxıstan bütün platformalarda, beynəlxalq tədbirlərdə hər vaxt Azərbaycanın haqlı mövqeyindən çıxış edib, Qarabağ məsələsində də dövlətimizin tərəfində olub. Torpaqlarımız azğın düşməndən azad edildikdən sonra da qardaş dövlət öz dəstəyini əsirgəməyib, qələbəmizi alqışlayan və müdafiə edən ilk ölkələrdən biri olub. "İşğaldan azad olunmuş Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşasına dair təşəbbüs də Qazaxıstan Prezidentinindir. Bu mərkəz iki dost və qardaş xalqın birliyinin yeni əyani nümunəsidir. İki ölkə qarşısında duran məsələlər nəinki səfərlər zamanı beynəlxalq strukturlarda, BMT və Türk Dövlətləri Təşkilatında da geniş müzakirə olunur. Çünki Türk Dövlətləri Təşkilatı artıq formalaşıb və türk dövlətlərinin problemlərini qabartmağa, beynəlxalq müstəviyə çıxarmağa qadirdir. Prezident İlham Əliyev mətbuata bəyanatında bunu bir daha qeyd edərək bildirdi ki, "bu təşkilat yaxın, dost, doğma ölkələri birləşdirir, həmçinin böyük potensiala malikdir". Azərbaycan nəqliyyat-tranzit məsələlərində də Qazaxıstanla həmrəydir. Qazaxıstandan keçməklə Çin Xalq Respublikasından Azərbaycana qədər yol qət edən konteyner qatarının nümunəsində bu aydın görünür. Trans-Xəzər nəqliyyat dəhlizinin reallığa çevrilməsi də iki ölkənin inkişafına sanballı töhfəsini verəcək", - deyə müsahibimiz əlavə edib.

Tahir Rzayev söyləyib ki, Azərbaycan neft-qaz sahəsində əməkdaşlığa böyük önəm verir və bu sahədə də yeni layihələr müəyyənləşdirilib: "COP29 konfransının Azərbaycanda keçirilməsini Qazaxıstan müsbət qarşılayır və bu sahədə əməkdaşlığa hazırdır. Çünki iqlim dəyişikliklərinin törətdiyi fəsadların aradan qaldırılması, "yaşıl enerji"yə keçid hər iki dövlətin xeyrinədir. Hər iki ölkə zəngin təbii ehtiyatlara malikdir. Bu ehtiyatlardan qarşılıqlı münasibətlər zəminində səmərəli istifadə edilərsə, bu sürətli inkişafın təmin edilməsi, xalqların rifah halının yaxşılaşdırılması baxımından əhəmiyyətlidir. Prezident İlham Əliyev bildirmişdir ki, "Zəngin təbii ehtiyatlara malik olmağımıza baxmayaraq, biz nəqliyyat infrastrukturumuzun bu gün beynəlxalq standartlara tam uyğun gəlməsinə çalışdıq və buna nail olduq". Bu, əlbəttə, yeni bir tarix, yeni bir qələbədir... Qazaxıstan rəhbəri bu qələbələrdə İlham Əliyevin roluna yüksək qiymət vermiş və bunu mətbuata verdiyi bəyanatda bir daha ifadə etmişdir: "Azərbaycan Sizin rəhbərliyinizlə böyük tarixi qələbə əldə edib. Bu dövlət suverenliyinin bərpa olunmasıdır. Qazaxıstan xalqı bununla bağlı böyük sevinc hissi keçirir... Həqiqətən son vaxtlar yüksək səviyyədə təmaslar artıb və bu, çox müsbət məqamdır".

Komitə sədrinin dediklərinə görə, səfər zamanı Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclasının keçirilməsi, prezidentlərin mətbuata verdikləri bəyanat və səsləndirilən xoşməramlı fikirlər bundan sonra əlaqələrin daha da genişlənəcəyinə, dövlətlərin inkişafına, xalqların xoşbəxt gələcəyinə zəmanətdir: "Qazaxıstan Prezidentinin söylədiyi kimi, Qazaxıstan və Azərbaycan əməkdaşlığın yeni dövrünə qədəm qoyur. Qazaxıstan Azərbaycanın etibarlı dostu və müttəfiqidir. Azərbaycan da bu dostluğa və müttəfiqliyə sadiqdir, Qazaxıstanı özünün strateji tərəfdaşı hesab etməklə yeni dövrün uğurlarını alqışlayır".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Qazaxıstanın Qarabağın qurulmasına qardaşlıq dəstəyi

## Prezident Kasım-Jomart Tokayevin Azərbaycana səfəri iki ölkə arasındakı əlaqələrdə yeni perspektivlər açacaq

"Azərbaycan və Qazaxıstanı sıx müttəfiqlik əlaqələri ilə yanaşı, ortaq tarix, mədəniyyət və milli köklər bağlayır. Hazırda ölkələrarası münasibətlərimiz özünün ən yüksək mərhələsindədir".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, Azərbaycan Mərkəzi Asiya ölkələri, o cümlədən regionun türk dövlətləri ilə münasibətlərə mühüm əhəmiyyət verir. Bu isə təbii olaraq qarşılıqlı əlaqələrin inkişafına, yeni əməkdaşlıq imkanlarının yaranmasına gətirib çıxarıb. Qazaxıstan, Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu türk dövlətlərindən biridir. Münasibətlərin dinamikası qarşılıqlı səfərlərin xronologiyasından aydın görünür. Son il yarım ərzində Prezident İlham Əliyev Qazaxıstana dörd dəfə səfər edib, həmçinin bu dövrdə Qazaxıstan Prezidenti üç dəfə ölkəmizdə olub.

K.Bayramov qeyd edib ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana növbəti dövlət səfəri iki ölkə arasındakı əlaqələrdə yeni perspektivlər açacaq. Dövlətimizin başçısı bu ilin martın 11-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana rəsmi səfəri ilə bağlı mətbuata verdiyi bəyanatda bildirib ki, biz paralel istiqamətlər üzrə irəliləyirik: "Bu gün diskussiyalar çərçivəsində qeyd edildi ki, Trans-Xəzər nəqliyyat marşrutunu meydana, deyərdim ki, dünya nəqliyyat-logistika spektrinə çıxaran indiki geosiyasi şərait möhkəm bazaya malikdir. Çünki həm Qazaxıstanda, həm də Azərbaycanda əvvəlki illərdə bu sahəyə böyük investisiyalar yatırılıb. Zəngin təbii ehtiyatlara malik olmağımıza baxmayaraq, biz nəqliyyat infrastrukturumuzun bu gün beynəlxalq standartlara tam uyğun gəlməsinə çalışdıq və buna nail olduq. Həm Qazaxıstanda, həm də Azərbaycanda dəmir yolları, aeroportlar, avtomobil yolları, dəniz limanları daxil olmaqla, iri miqyaslı nəqliyyat layihələri həyata keçirildi. Bu gün bunlara həmişəkindən daha çox ehtiyac var. Bu, bizi bir daha əmin edir ki, bütün işləri vaxtında görmək və yaxın perspektivdən bir az uzağa baxmaq lazımdır. Yalnız belə olan təqdirdə uğur qazanmaq mümkündür. Ona görə də əgər bu gün nəqliyyat infrastrukturuna investisiya qoymağa başlasaydıq, yəqin ki, indi həmin potensiala malik olmaq üçün onilliklər lazım gələrdi. İndi bu bünövrə üzərində biz nəqliyyat-tranzit imkanlarımızın, həm limanların, dəmir yollarının, həm də sinergiya yaradılmasının, vahid nəqliyyat kompleksinin qurulmasının genişləndirilməsini planlaşdırırıq. Bu kompleksdə rəqəmsallaşma ilə bağlı layihələr də dəstəklənəcək. Bu məsələlərdə biz paralel istiqamətlər üzrə hərəkət edirik. Həm Qazaxıstanda, həm də Azərbaycanda bu sahəyə çox böyük diqqət yetirilir".

Deputat vurğulayıb ki, iki ölkə arasında parlamentlərarası əlaqələr də uğurla inkişaf edir: "Hər iki ölkənin qanunverici orqanlarında dostluq qrupları fəaliyyət göstərir. Ölkələrimiz arasında geniş hüquq-müqavilə bazası formalaşıb. İndiyədək Azərbaycanla Qazaxıstan arasında 150-yə yaxın sənəd imzalanıb. Bu normativ hüquqi baza daha da genişlənir və təkcə 1 il 6 ay ərzində 40-a yaxın mühüm ikitərəfli sənəd imzalanıb. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına 1999-cu ildə yaradılmış Ticari-İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya da mühüm töhfə verir. Komissiyanın indiyədək 20 iclası keçirilib. Sonuncu iclas isə bu ay Astanada baş tutub".

Deputat diqqətə çatdırıb ki, dünyada baş verən mürəkkəb proseslər fonunda Orta dəhlizin rolu artmaqdadır və bu layihə artıq öz gücünü göstərib. Məsələn, əvvəllər Çindən dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına daşınması əgər 53 gün zaman alırdısa, hazırda bu, cəmi 18 günə mümkün olur. Bu da əlavə böyük vaxt itkisinin aradan qaldırılması, məsrəflərin azaldılması baxımdan son dərəcə önəmlidir. Həmçinin dəhliz vasitəsilə daşınan yüklərin həcminin artırılması istiqamətində iş aparılır. Azərbaycan ilə Qazaxıstan arasında əlaqələr bütün sahələrlə yanaşı, enerji sektorunda da uğurla inkişaf edir. SOCAR ilə "KazMunayGaz" arasında ötən il imzalanan yol xəritəsi əlaqələrin genişləndirilməsi üçün geniş imkanlar yaradıb. Qarşılıqlı səmərəli əməkdaşlıq, neftin emalı, tranziti, ticari-iqtisadi münasibətlər Azərbaycanın sürətli inkişafına təkan verərək onu regional enerji mərkəzinə çevirib.

K.Bayramov bildirib ki, iki ölkə arasında neft və neft məhsullarının ticarəti sahəsində uğurlu əməkdaşlıq davam edir. "Buraya Qazaxıstan mənşəli xam neftin Bakı-Tbilisi-Ceyhan neft boru kəməri ilə dünya bazarına çatdırılması, Azərbaycanda emalı, neftin dünya bazarına təchizatı və sair daxildir. "SOCAR Midstream Operations" MMC 2023-cü ilin martından etibarən Qazaxıstanın Tengiz yatağından ayda 125 min ton həcmində neftin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəqlinə başlayıb. "Həmçinin Azərbaycan-Qazaxıstan əməkdaşlığında ticarət-iqtisadi əlaqələr xüsusi yer tutur. Ölkəmizdə Qazaxıstan investisiyalı 182 kommersiya qurumu qeydiyyatdadır. Qazaxıstandan Azərbaycana 102,2 milyon dollar, Azərbaycandan Qazaxıstana isə 205,2 milyon dollar investisiya qoyulub. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 598,47 milyon dollar təşkil edib", - deyə o əlavə edib.

K.Bayramov əlavə edib ki, Qazaxıstan xalqı hər iki Qarabağ müharibəsi zamanı Azərbaycana dəstək nümayiş etdirib. Vətən müharibəsi dövründə isə Qazaxıstan dövləti, bütün qazax xalqı haqq-ədalətin yanında olub, ölkəmizin haqlı mübarizəsini dəstəkləyib. Dost ölkə Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına həmişə hörmətlə yanaşdığını bildirib.

Bu gün Qazaxıstanın Qarabağın yenidən qurulmasında iştirakı dostluğumuzun bariz nümunəsidir. Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi tikilib. Bu addım Azərbaycan Prezidenti və xalqı tərəfindən yüksək qiymətləndirilir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 132

QƏRAR

Bakı şəhəri, 12 mart 2024-cü il

## "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 144 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"nin 16-cı hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 144 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 572 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya üzvlərinin sayı 24 (iyirmi dörd) nəfərdən ibarət müəyyən edilsin.".

2. 2-ci hissənin "Kollegiyanın üzvləri:" bölməsi üzrə:

2.1. "Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru" sözlərindən sonra "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin regional idarələrinin rəisləri" sözləri əlavə edilsin;

2.2. "Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasi-yasının prezidenti" sözləri "Azəridmanservis" MMC-nin direktoru" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 134

QƏRAR

Bakı şəhəri, 12 mart 2024-cü il

## "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"nın və "Kvota şamil edilməyən müəssisələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"nın və "Kvota şamil edilməyən müəssisələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respub-likası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1073 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissədə "vətəndaşlar" sözü "şəxslər" sözü ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası" üzrə:

2.1. adında, preambulasında, 1.1-ci bəndin birinci abzasında, 1.3-cü bəndin birinci və yeddinci abzaslarında, 3.3-cü, 3.4-cü bəndlərdə ismin müvafiq hallarında "vətəndaşlar" sözü ismin müvafiq hallarında "şəxslər" sözü ilə əvəz edilsin;

2.2. 1.2-ci bəndə "orta" sözündən sonra "illik" sözü əlavə edilsin;

2.3. 2.1-ci və 2.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1. Bu Qaydanın 1.2-ci bəndinə uyğun olaraq müəyyən edilən kvota Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) Mərkəzləşdirilmiş elektron informasiya sistemində (bundan sonra - MEİS) qeydə alınmış məlumatlar əsasında real vaxt rejimində MEİS tərəfindən avtomatlaşdırılmış qaydada hesablanır. Kvota müəyyən edilərkən alınan nəticələr tam ədəd olmadıqda MEİS tərəfindən ən yaxın tam ədədə yuvarlaqlaşdırılır.

2.2. İşəgötürənlər kvota barədə məlumatı kvota müəyyən edildiyi gündən 5 (beş) iş günü müddətində "e-sosial" internet portalında yaradılmış elektron kabinetləri vasitəsilə əldə edirlər.";

2.4. 2.3-cü və 2.4-cü bəndlər ləğv edilsin;

2.5. 3-cü hissə üzrə:

2.5.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.1. Müəssisələr üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə işçilərin qəbul edilməsi Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarının (bundan sonra - Agentliyin yerli qurumları) və ya "DOST" mərkəzlərinin göndərişi ilə həyata keçirilir. İşəgötürən MEİS-in "Məşğulluq" altsistemi (bundan sonra - MAS) tərəfindən elektron qaydada təqdim edilmiş göndərişə əsasən 5 (beş) iş günü müddətində sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin vakansiya üzrə işə qəbulundan imtina etməsi və ya vakansiyaya uyğun işlə təmin etməsi ilə bağlı qərarı barədə göndərişdə müvafiq qeydlər aparır və bu barədə məlumatı MAS-a daxil edərək, gücləndirilmiş elektron imzası ilə təsdiqləyir.";

2.5.2. 3.2-ci, 3.5-ci bəndlər və 4-cü hissə ləğv edilsin;

2.5.3. 3.3-cü bəndə "ehtiyacı olan" sözlərindən sonra "və işə düzəlməkdə çətinlik çəkən" sözləri əlavə edilsin və həmin bənddən "şəhər, rayon Məşğulluq Mərkəzinə və ya "DOST" mərkəzinə ən geci 5 gün müddətində məlumat vermək şərtilə," sözləri çıxarılsın;

2.5.4. 3.4-cü bəndə (hər iki halda) "ehtiyacı olan" sözlərindən sonra "və işə düzəlməkdə çətinlik çəkən" sözləri əlavə olunsun və həmin bənddə "şəhər, rayon məşğulluq mərkəzləri" sözləri "Agentliyin yerli qurumları" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 133

QƏRAR

Bakı şəhəri, 12 mart 2024-cü il

## "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 19 yanvar tarixli 34 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissənin "cəmi" sütununda "23" rəqəmləri "10" rəqəmləri ilə əvəz edilsin və "ərazi və yerli bölmələr üzrə" sütunundan "13" rəqəmləri çıxarılsın.

2. 35-1-ci hissənin "cəmi" sütununda "2" rəqəmi "3" rəqəmi ilə, "aparat üzrə" sütununda "2" rəqəmi "3" rəqəmi ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 35-2-ci və 35-3-cü hissələr əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 35-2. | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi | 3 | 3 | - | - |
| 35-3. | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi | 17 | 4 | - | 13 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 141

QƏRAR

Bakı şəhəri, 13 mart 2024-cü il

## "Naxçıvan" Beynəlxalq Hava Limanının "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyinə verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tabeliyində olan "Naxçıvan" Beynəlxalq Hava Limanı "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyinə verilsin.

2. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Qərardan irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 135

QƏRAR

Bakı şəhəri, 12 mart 2024-cü il

## "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 632-VQD nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 30 may tarixli 1437 nömrəli, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 739-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2017-ci il 14 iyul tarixli 1531 nömrəli və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2021-ci il 12 iyul tarixli 1387 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2410 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 632-VQD nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 30 may tarixli 1437 nömrəli, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 739-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2017-ci il 14 iyul tarixli 1531 nömrəli və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2021-ci il 12 iyul tarixli 1387 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2410 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 575 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2522 (Cild I) ilə təsdiq edilmiş "Yerləşmə vasitələri hesab edilən mehmanxana tipli obyektlərin və müvəqqəti yaşayış üçün nəzərdə tutulmuş digər tikinti obyektlərinin Siyahısı"nın "Qeyd" hissəsi ləğv edilsin.

2. "Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları"nın təsdiq edilməsi və aktiv istehlakçılar tərəfindən bərpa olunan enerji mənbələri hesabına istehsal edilən elektrik enerjisinin güc həddinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 346 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1367 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

3. "Bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisinin mənbəyinə dair sertifikatın verilməsi Qaydası və formasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 347 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1368 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

4. "Bərpa olunan enerji mənbələri üzrə informasiya sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 348 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1369 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) 4-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 138

QƏRAR

Bakı şəhəri, 12 mart 2024-cü il

## "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 645 (Cild I) ilə təsdiq edilmiş "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"nın 43-cü hissəsinin birinci abzasında "istehsalat təcrübəsi" sözləri "ixtisas üzrə təcrübə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 20 sentyabr tarixli 223 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 870 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlanmasına dair Proqram"ın "5. Kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlanmasına dair Proqram üzrə Tədbirlər Planı"nın 5-ci hissəsinin "Tədbirlərin adı" sütununa "təcrübəsinin" sözündən sonra "və ya ixtisas üzrə təcrübənin" sözləri ilə əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 365 (Cild I) ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 8.5-ci bənd üzrə:

3.1.1. dördüncü abzasda "istehsalat" sözü "tələbələrin ixtisas üzrə" sözləri ilə əvəz edilsin;

3.1.2. on birinci abzasda "istehsalat təcrübələrinin" sözləri "ixtisas üzrə təcrübələrin" sözləri ilə əvəz edilsin;

3.2. 8.7.6-cı yarımbənddə "istehsalat" sözü "tələbələrin ixtisas üzrə" sözləri ilə əvəz edilsin;

3.3. 8.7.10-cu yarımbəndin doqquzuncu abzası aşağıdakı redaksiyada verilsin:

"tələbələrin ixtisas üzrə təcrübəsi;".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 366 (Cild I) ilə təsdiq edilmiş "Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 8.4.3-cü yarımbənddə "istehsalat təcrübələrinin keçirilməsinə, buraxılış işlərinin yerinə yetirilməsinə, tələbələrin" sözləri "tələbələrin ixtisas üzrə təcrübələrinin keçirilməsinə, buraxılış işlərinin yerinə yetirilməsinə," sözləri ilə əvəz edilsin;

4.2. 8.4.10-cu yarımbənddə "istehsalat" sözü "ixtisas üzrə" sözləri ilə əvəz edilsin;

4.3. 8.6.6-cı yarımbənddə "istehsalat təcrübəsi" sözləri "ixtisas üzrə təcrübə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 450 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1870 (Cild I) ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.6.4-cü yarımbənddə "istehsalat təcrübəsində" sözləri "ixtisas üzrə təcrübədə" sözləri ilə əvəz edilsin;

5.2. 3.18-ci bənddə "istehsalat təcrübəsi" sözləri "ixtisas üzrə təcrübə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## ABŞ yeni müharibə ocağı yaratmaq niyyətindədir

### Ağ Ev öz maraqları naminə istənilən dövləti qurban verməyə hazırdır

"ABŞ hər zaman imperialist siyasət həyata keçirib, iqtisadi və hərbi gücündən istifadə edərək dövlətləri öz təsir dairəsində saxlamaq niyyətində olub. Azərbaycan da uzun illərdir Amerika və Qərbdəki bəzi dövlətlərin geosiyasi oyunlarından və qərəzli, ikili siyasətlərindən əziyyət çəkir".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Deputat xatırladıb ki, ABŞ Konqresi ilk dəfə 1992-ci ildə Azərbaycana təhlükəsizlik yardımının qarşısını alıb. Buna səbəb kimi Azərbaycanın guya Ermənistanı blokadaya alması göstərilirdi. Halbuki həmin dövrdə Ermənistan Azərbaycan torpaqlarını işğal etmək üçün hərbi təcavüzə əl atmışdı və müharibə ölkəmizin ərazisində gedirdi. ABŞ işğalçı dövlət olan Ermənistana təsir göstərmək əvəzinə, Azərbaycan torpaqlarının işğal olunmasına, azərbaycanlıların soyqırımına məruz qalmasına bir növ dəstək vermişdi.

K.Əliyeva qeyd edib ki, Azərbaycan bütün dövlətlərlə, o cümlədən ABŞ ilə bərabərhüquqlu münasibətlər qurmaq siyasəti həyata keçirir. 2002-ci ildə Azərbaycan və ABŞ arasında hərbi əməkdaşlıq haqqında saziş imzalanıb. Amerika İranla ehtimal olunan müharibə üçün Azərbaycandan istifadə etmək niyyəti güdürdü. Azərbaycan isə hər zaman qonşu dövlətlərlə mehriban münasibətlər qurmaq siyasəti həyata keçirdiyindən buna icazə vermədi: "ABŞ-nin məqsədi region dövlətləri arasında yeni münaqişə ocağı yaratmaq idi. ABŞ-nin və Qərbin Azərbaycana qarşı ikili standartları, riyakarlığı açıq şəkildə özünü büruzə verir. ABŞ Ukrayna, Moldova, Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyi halda, Azərbaycana qarşı fərqli mövqe nümayiş etdirir. Azərbaycan torpaqlarını işğaldan azad edib öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra ABŞ-nin Dövlət Departamenti, Konqresi Azərbaycana qarşı qərəzli, əsassız ittihamlar irəli sürməyə başladı", - deyə o, əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycanda iqtidarla xalqın sarsılmaz birliyinin gücləndiyini dərk edən ABŞ bir sıra QHT-lər vasitəsilə ölkəmizdə milli dəyərlərə təhlükə yaradan ideyaları təbliğ etmək qərarına gəlib. Müdrik Azərbaycan xalqı bütün bunları yaxşı dərk edir və xalqımız hər zaman öz lideri - Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Vaşinqtonun ikili siyasətindən Ermənistan faydalanacağını düşünürsə, tamamilə yanılır. ABŞ öz məqsədləri naminə istənilən dövləti qurban verməyə hazırdır. Amerika Ermənistanı "ikinci Ukrayna"ya çevirməyə çalışır. Ukraynanı Rusiya ilə müharibəyə təhrik edən, bu ölkəni özündən asılı vəziyyətə salmaq üçün manipulyasiya edən ABŞ faktiki olaraq Ukraynanı qurban verdi. Bu gün isə Ukraynanı məğlubiyyətlə barışmağa sövq etməyə çalışır.

ABŞ-nin Yaxın Şərqdə və digər regionlarda yeni müharibə ocaqları yaratmağa, ölkələrin daxilində hərbi çevrilişlər törətməyə cəhd etdiyini deyən K.Əliyeva bildirib ki, bu dövlət Türkiyəni də "ikinci Suriya"ya çevirməyə çalışırdı: "2016-cı ildə terror təşkilatlarının vasitəsilə Türkiyədə dövlət çevrilişi törətməyə cəhd göstərdi. Yalnız Türkiyə rəhbərliyinin qətiyyəti və xalqın hakimiyyətə dəstəyi ABŞ-nin planlarını puça endirdi. Amerika bu gün də dünyada öz nüfuzunu artıran güclü, qüdrətli dövlətə çevrilən Azərbaycana qarşı müxtəlif vasitələrlə qərəzli siyasətini davam etdirir. ABŞ-nin və Qərbdəki bəzi dövlətlərin Azərbaycana qarşı yürütdüyü bu məkrli siyasət fiaskoya uğrayacaq və sonda özləri peşman olacaq".

K.Əliyeva yekunda bildirib ki, bu gün Azərbaycan qüdrətli dövlət olmaqla yanaşı, dünyada söz və güc mərkəzinə çevrilən qardaş Türkiyə başda olmaqla bir çox güclü dövlətlər tərəfindən dəstəklənir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Qərbin bədnam planları baş tutmayacaq

**ABŞ-nin və Qərbin bəzi fondlar vasitəsilə müstəqil ölkələrdə dağıdıcı siyasət yürütdüyü hər kəs tərəfindən bilinən gerçəklikdir.**

Onlar öz sifarişlərini icra etdirmək üçün hədəfə götürdükləri ölkələrin mediasını, QHT-lərini ələ almaqla, onları müxtəlif yollarla maliyyələşdirməklə pərdə arxasından çirkin planlarını yerinə yetirməyə çalışırlar. Pulla ələ aldıqları bu qurumlar vasitəsilə ölkədə qarşıdurmalar yaratmaq, xalqla dövləti üz-üzə qoymaq, hərbi çevrilişlər həyata keçirmək onların məqsədləridir.



### Riyakar siyasət

Təbii ki, zamanında duyuq düşülərək qarşısı alına bilinməyən bu mənfur planların "ərəb baharı"na, Əfqanıstanın və sair ölkələrin timsalında hansı ağır nəticələrə gətirib çıxarmasının, ayrı-ayrı xalqları necə fəlakətə sürüklədiyinin şahidiyik. Dünyanın bir çox bölgəsində olduğu kimi, ABŞ Əfqanıstanda da hərbi qarşıdurma ssenarisini gerçəkləşdirdi və yenə də hər zaman olduğu kimi, burada da onu taleyin ixtiyarına buraxaraq qaçdı. Dünyaya "demokratiya", "azadlıq" toxumları səpdiyini, xalqların hüquqlarını qoruduğunu iddia edən Amerikanı bu gün əfqan xalqının nə hüquqlarının, nə də taleyinin zərrə qədər narahat etmədiyi gün kimi ortadadır.

Dünyanın gözü qarşısında ABŞ tərəfindən eyni ssenari hazırda Ukraynada həyata keçirilir. Belə ki, Ağ Evin yüksəkvəzifəli şəxslərinin, o cümlədən ekspertlərinin açıqlamaları da deməyə əsas verir ki, artıq onlar müharibə bataqlığına sürüklədikləri müttəfiqləri Ukraynanı da meydanda tək qoyublar. Məlumdur ki, vaxtilə Ukraynaya vədlər verib onu Rusiya ilə qarşıdurmaya sövq edən məhz rəsmi Vaşinqton və onun Avropadakı müttəfiqləri olublar. Bu yaxınlarda Fransa prezidenti Emmanuel Makronun müsahibəsində "Fransa yaxın vaxtlarda Ukraynaya hərbi personal göndərməyi düşünmür" açıqlamasının özü də vəziyyətin nə yerdə olduğunu açıq ortaya qoyur. Bir sözlə, hazırda ABŞ və Qərb faktiki olaraq Ukraynanın parçalanması ssenarisini həyata keçirirlər. Bu sonluq üçün isə riyakar müttəfiqlər əvvəlcədən "günah keçisi" də hazırlayıblar, axırda Ukrayna hakimiyyəti günahkar çıxarılacaq.

### Eyni çirkin ssenari

ABŞ-nin başçılığı altında bəzi Qərb ölkə və təsisatları Azərbaycanda da illərdir eyni çirkin ssenarini həyata keçirməyə cəhd edirlər. Onlar Soros, USAID kimi fondlar vasitəsilə Azərbaycanda da "Abzas Media", "Toplum TV", müəyyən QHT-lər və digərlərini maliyyələşdirərək ölkəmizdə mənfur planlarının reallaşmasına çalışırlar. İstəyirlər ki, burada da siyasi sabitliyi pozsunlar, xalqla dövləti qarşı-qarşıya qoysunlar, ölkəmizi parçalasınlar. Bir müddət əvvəl "Abzas Media"da, bu yaxınlarda isə "Toplum TV"də aparılan araşdırmalar zamanı sözügedən Qərb təsisatlarının Azərbaycanla bağlı məkrli planları faktlarla üzə çıxarıldı. Məsələn, "Toplum TV"-nin ofisində axtarış-əməliyyat tədbirlərinin həyata keçirilməsi zamanı Qərb institutları tərəfindən Azərbaycan qanunlarına zidd şəkildə medianın, jurnalistlərin və ayrı-ayrı şəxslərin maliyyələşdirilməsinə dair ciddi dəllilər müəyyən edilib.

Faktlar göstərir ki, Qərb təsisatları tərəfindən geniş şəbəkə yaradılmaqla qanunsuz maliyyə maxinasiyaları həyata keçirilir və çirkli pullar yuyulur. Maliyyə Qərb institutları tərəfindən Gürcüstan vasitəsilə həmin şəbəkəyə ötürülüb. Bu zaman terror təşkilatlarının da istifadə etdiyi həvalə mexanizmindən və adsız kartlardan geniş istifadə olunub.

### Azərbaycan öz uğurları ilə gözdağı verir

Təbii ki, Azərbaycan milli təhlükəsizlik orqanları dövlətə qarşı bu kimi cinayətkar məqsədlərin həyata keçirilməsinə qətiyyən imkan vermir və çirkin əməlləri törətmək istəyənləri zamanında zərərsizləşdirir.

Bütün bunlar da göstərir ki, xüsusilə Zəfərimizdən və suverenliyimizin təminindən sonra ABŞ və Qərbin müəyyən dairələri Azərbaycanda siyasi sabitliyi pozmaq, qarışıqlıq yaratmaq üçün bütün mümkün imkanlardan yararlanırlar.

Elə "Abzas Media" və "Toplum TV" ilə bağlı Azərbaycan qanunları çərçivəsində həyata keçirilən işlərlə bağlı xarici media orqanlarında qarayaxma kampaniyalarına start verilməsi, iftira və əsassız ittihamlardan ibarət materialların tirajlanması, eyni zamanda "hüquq-müdafiə təşkilatlarının", Qərb rəsmilərinin hay-küy salmaları da göstərir ki, bütün bunlar sistemli şəkildə həyata keçirilir və bir yerdən, yəni ABŞ başda olmaqla Qərbdən idarə olunur.

Təbii ki, baş verənlər Azərbaycan - ABŞ ikitərəfli əlaqələrinə zərbə vurur. Həm də bu məsələdə uduzan tərəfin məhz ABŞ olduğu danılmaz həqiqətdir. Bu baxımdan Ağ Evin Azərbaycanla münasibətlərində riyakarlıqdan əl çəkməməsi, əlaqələrində səmimiyyətdən uzaq olması, ölkəmizin daxili işlərinə qarışması həm də bölgədəki bütün siyasətinin iflası anlamına gəlir.

Azərbaycan öz gücünə torpaqlarını işğaldan azad edib, parlaq Zəfər qazanıb, suverenliyini təmin edib. 2024-cü il fevralın 7-də keçirilən prezident seçkiləri ilə sarsılmaz milli birliyini dünyaya nümayiş etdirib. Bütün bunlar ölkəmizdə qarşıdurma yaradan ABŞ-yə, Fransaya, ümumiyyətlə siyasətləri "müstəqil ölkələri parçala, hökm sür" olan qərəzli Qərb ölkə və təsisatlarına gözdağıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Ermənistan müxtəlif güclərin toqquşduğu poliqona çevriləcək

"Regionumuzda mövcud olan gərginliyin əsas səbəbkarı Fransadır. Paris şirin və saxta vədlərilə Ermənistanı şirnikləndirir və fəlakətə sürükləyir. Cənubi Qafqazda möhkəmlənməyə çalışan Makron hökuməti sülhü əngəlləyən bu qərəzli addımları ilə öz imicini zədələməklə yanaşı, ölkəsini də bütün dünyada rüsvay edib".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, Fransa uzun illərdir ki, Azərbaycana qarşı qərəzli siyasət yürdür: "Fransa illər boyu ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi BMT TŞ-nın 4 qətnaməsinin icra olunmamasına çalışdı. Həmsədr olan Fransa və digər ölkələr Azərbaycanı işğalla barışdırmaq və torpaqlarımızda erməni işğalını əbədiləşdirmək üçün əllərindən gələni əsirgəmədilər. Lakin Prezident İlham Əliyev bütün beynəlxalq görüş və tədbirlərdə Azərbaycanın torpaqlarımızın işğalı ilə heç vaxt barışmayacağını və bu məsələ danışıqlar yolu ilə həll olunmazsa, öz gücümüzlə edəcəyimizi açıq şəkildə bildirirdi. Təbii ki, bizim gizlədəcəyimiz bir şey yox idi və məhz bu məqsədlə ordumuzu gücləndirirdik. 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsində şanlı ordumuz Ermənistanın dizini yerə vuraraq kapitulyasiya sənədinə imza atmağına məcbur etdi".

Deputat xatırladıb ki, bundan sonra Qərb, xüsusilə də Fransa zəfərimizi həzm edə bilmədiyinə görə Azərbaycana olan qərəzli münasibətini açıq müstəviyə çıxardı: "Rəsmi Paris vasitəçilik etmək adı altında Azərbaycana təzyiq göstərməyə çalışdı. Təbii ki, Prezidentimizin qətiyyətini və dəyişilməz mövqeyini Fransa prezidenti Emmanuel Makron yenə həzm edə bilmədi və beynəlxalq təşkilatlarda Azərbaycana qarşı qərarlar qəbul etdirmək üçün cəhdlər göstərdi. Makronun ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə hesabladığı qərəzli sənədlər BMT-yə çıxarıldı. Amma dostlarımızın sərgilədiyi ədalətli mövqe sayəsində Fransa müzakirəyə çıxardığı sənədləri biabırcasına geri götürməyə məcbur oldu.

BMT-də Azərbaycana qarşı uğur qazana bilməyən və heç bir yerə əli çatmayan Makron Ermənistanı yenidən müharibəyə hazırlaşmağa sövq edərək, sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar prosesində əldə edilmiş nəticələrə zərbə vurdu. Azərbaycan- Ermənistan münasibətlərinin normallaşdırılması prosesində əldə olunmuş nəticələrə qarşı süni uçurum yaradan Ermənistanın baş naziri Nikol Paşinyan Fransanın dəstəyindən ruhlanaraq Azərbaycana qarşı yenidən ərazi iddiaları ilə çıxış etməyə başladı. Belə ki, 2020-ci il sentyabrın əvvəlində torpaqlarımızda saxta qurumun yaradılması münasibətilə separatçılara təbrik göndərdi. Bu, Azərbaycanın hisləri ilə oynamaq və təhqir etmək demək idi".

Azər Badamovun dediklərinə görə, bu dözülməz vəziyyətə nöqtə qoyulması üçün ötən il sentyabrın 19-20-də lokal xarakterli antiterror tədbirləri keçirməyə məcbur olduq: "Cəmi 23 saata Qarabağda separatçıların yuvası dağıdıldı və Xankəndidə Azərbaycanın dövlət bayrağı qaldırılaraq bütün ərazilərimizdə suverenlik təmin edildi. Antiterror tədbirlərindən sonra Ermənistanla şərti sərhəddə 5 aylıq nisbi sakitlik yaransa da, Fransanın ssenarisi ilə ermənilər bu il fevralda Zəngilan rayonu ərazisində sərhədçimizə güllə ataraq yenidən təxribat törətdilər. Ordumuz qisas əməliyyatı keçirərək əsgərimizə güllə atılan düşmən postunu darmadağın etdi".

Fransanın bu gün Ermənistanı silahlandırdığını və fransız hərbçiləri tərəfindən erməni əsgərlərə hərbi təlimlər keçirildiyini bildirən deputat qeyd edib: "Paris unutmamalıdır ki, Ermənistan nə qədər silahlansa da, Azərbaycanla müharibə edə biləcək səviyyəyə heç vaxt gəlməyəcək. Fransanın Ermənistanı silahlandırmaqda və şirin vədlər verməkdə digər məqsədi Rusiyanı regiondan çıxartmaqdır. Paşinyanın ritorikası son vaxtlar həm də Rusiyaya qarşı yönəlib. Belə ki, Zvartnos hava limanındakı sərhədçilərin çıxarılması ilə bağlı Rusiyaya vaxt qoymuş Fransanın sonrakı mərhələdə Rusiya hərbi bazasının Ermənistandan çıxarılması ilə bağlı yeni tələb ortaya qoyacağı şübhə doğurmur. Paşinyanın bu gün əsas məqsədi Rusiyanı ölkəsindən çıxardaraq, onu Fransa ilə əvəzləməkdir. Amma Paşinyan hakimiyyəti başa düşmür ki, Qərbin daxil olduğu bütün ölkələr poliqona çevrilir və xalqın bədbəxtliyi dərinləşir. Hesab edirəm ki, Ermənistan bu gedişlə yaxın gələcəkdə müxtəlif güclərin toqquşduğu məkana çevriləcək".

Azər Badamov vurğulayıb ki, qonşu ölkə olaraq biz ətrafımızda sabitliyin olmasında maraqlıyıq: "Amma görünür, Ermənistanda toqquşmalar və hərc-mərclik qaçılmazdır. Bu ölkədə toqquşmalar baş qaldıracağı təqdirdə onlara nə Fransa, nə də başqa biri kömək göstərəcək. Xain ölkə fəlakətə məhkumdur".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## İslamofobiya Fransanın dövlət siyasətinin bir hissəsidir

Ötən həftə ölkəmiz daha bir tədbirə - "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda keçirilən beynəlxalq elmi konfransa evsahibliyi etdi.

Konfransa dünyanın 32 ölkəsindən gəlmiş 130-a qədər alim, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatlarının nümayəndələri qatılmışdı. Bu nüfuzlu tədbirdə mövzu üzrə yerli ekspertlər, dövlət qurumlarının nümayəndələri, dini icma rəhbərləri, dövlət rəsmiləri və diplomatlar da iştirak edirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına ünvanlanan müraciətində deyilirdi: "Azərbaycan da islamofobiyadan əziyyət çəkən ölkədir. Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalının ən ağır fəsadlarından biri də bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv olunmasıdır. İlkin araşdırmalara görə, işğal dövründə 65 məscidin yerlə yeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə daha da artır və islam irsinə qarşı erməni vandalizminin çoxsaylı yeni nümunələri ortaya çıxır. Bundan əlavə, bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığının məhv edildiyi, müsəlman dini ibadət yerlərinin, məscid və türbələrimizin təyinatının dəyişdirilərək saxtalaşdırıldığı, bir çox hallarda isə tövlə kimi istifadə olunaraq orada dinimizdə haram sayılan heyvanların saxlanıldığı faktları aşkar edilir. Bu cür həqarət aktları yalnız bizim deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir edir".

Konfrans çərçivəsində keçirilən plenar və bölmə iclaslarında tolerantlığı, sülhü və insan hüquqlarına və dini müxtəlifliyə hörməti təşviq etmək üçün qlobal dialoqa çağırış, multikulturalizm, İslam və sivilizasiyaların toqquşması nəzəriyyəsi, islamofobiyanın yenidən nəzərdən keçirilməsi, ictimai rəyin formalaşdırılması, rəqəmsal islamofobiya, ali təhsil kontekstində islamofobiya ilə mübarizə, Qərbi Avropada müsəlmanlara münasibətdə oxşarlıqlar və fərqlər, müsəlman icmasının əsas insan hüquqları, Fransada müsəlmanlara qarşı siyasətlər, islamofobiyanın normallaşdırılması və başqa mövzularda müzakirələr aparılmışdır.

Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) Aparat rəhbəri Aydın Səfixanlı "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq elmi konfrans çərçivəsində təşkil olunan "Genderləşdirilmiş islamofobiyanın matrisi: müsəlman qadınlarının repressiyası və müqaviməti, gender və cəmiyyət" adlı paneldəki çıxışı zamanı vurğulayıb ki, müsəlman qadınların hüquqlarının inkarı Avropada, xüsusən də Fransada artan islamofobiya kontekstində baş verir. Bir çox Avropa ölkələrində dini geyimi qadağan edən qanunlar var və bu, azadlıq hüququnun kobud şəkildə pozulmasıdır. Dini geyimlərə qoyulan məhdudiyyətlər çox vaxt bütün dinlərə mənsub insanlara şamil edilən neytrallıq çərçivəsində əsaslandırılır, lakin əslində bu, yalnız müsəlman qadınlara qarşı yönəlib və islamın Qərb dəyərlərinə uyğun gəlməməsi ilə bağlı daha geniş müzakirələrin bir hissəsidir. İslamofobiya Fransa dövlətinin siyasətidir. Müsəlman qadınların fundamental hüquqları pozulur, həm din, həm də cinsiyyət zəminində ayrı-seçkilik edilir. Bəzi Avropa ölkələri istənilən formada dini dözümsüzlük və gender bərabərsizliyinə qarşı qətiyyətli mövqe tutmalıdır. Fransada hicabın qadağan edilməsi müsəlman qadınların təhsil və iş kimi əsas institutlara çıxışının qarşısını alır. Təəssüf hissi ilə qeyd etmək istərdim ki, insan hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına səbəb olan bu cür qanunsuz əməllər Fransada dövlət səviyyəsində dəstəklənir və gücləndirilir. Beynəlxalq təşkilatlar bu faktlara biganə qalmamalı və belə halların qarşısını almalıdırlar.

Konfransdakı çıxışlardan da göründüyü kimi, özlərini mədəniyyətin və demokratiyanın banisi sayan fransızların əksəriyyəti müsəlman dünyasına qarşıdır. Dünyada multikulturalizm və plüralizm şüarı ilə çıxış edən Fransanın məsələyə bu cür yanlış münasibəti ölkədə müsəlmanlıqdan vahimənin - islamofobiyanın getdikcə güclənməsinə, müsəlmanlara qarşı təzyiqlərin artmasına real təhlükə və şərait yaradır. Fransada yaşayan müsəlmanlar arasında keçirilən rəy sorğusunda iştirak edənlərin 74 faizi çalışdıqları iş yerlərində, ictimai yerlərdə, nəqliyyatda və başqa yerlərdə müsəlman olduqları üçün müəyyən çətinliklərlə üzləşdiklərini bildirmişlər.

Fransanın müstəmləkəçi dövlət olduğu, Yaxın Şərq və Afrikada onun əsarətindəkilərin əksəriyyətini müsəlman ölkələrinin təşkil etdiyi tarixdən məlumdur. Buna görə də fransızlar müsəlmanların islam dəyərlərinə və etiqadına dərindən bağlı olduqlarından yaxşı xəbərdardırlar. Fransızlar hesab edirlər ki, islami prinsiplər müsəlmanların Avropa xalqları ilə qaynayıb-qarışması yolunda ciddi maneədir. Bu cür düşüncə tərzi fransızların bir çoxunda müsəlmanlara qarşı neqativ münasibət yaranmasına səbəb olmuşdur. Göründüyü kimi, Fransanın islamofobiya qorxusu sərhəd tanımır.

Beynəlxalq konfransda dünyaya diqqətçəkən çağırışlar da oldu. İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA) baş direktoru Mahmut Erol Kılıç islamofobiyanın şəxsi zəmində yaranan qərəz olduğunu qeyd edərək deyib: "Bəzi ölkələr islamofobiyanı öz siyasətlərinin bir parçasına çeviriblər. Bu isə dünyanı sülhdən uzaqlaşdırır. Əgər sülhün bərqərar olduğu bir dünyanı gələcək nəsillərə ötürmək istəyiriksə, islamofobiyaya qarşı birgə mübarizə aparmalıyıq. Yanlış məlumatlar cəmiyyətdə islamofob fikirlər formalaşdıra bilər. İslamofobiyanın real təsirləri isə gələcək nəsillər üçün daha faciəvi ola bilər".

"Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda Bakıda keçirilən beynəlxalq elmi konfrans Azərbaycanın daim artan gücünü, qüdrətini bir daha dünyaya göstərdi. Konfransda dünyamızın sabitliyi və əmin-amanlığı üçün aparılan çox mühüm müzakirələr, çağırışlar diqqətlə dinlənildi. Yəqin ki, başda Fransa olmaqla islamofobiya qorxusu yaşayan ölkələr konfransda səslənən dəyərli fikirlər və mühüm çağırışlardan ibrət dərsi götürəcəklər. İnanırıq ki, konfrans ayrı-ayrı xalqların, dinlərin, mədəniyyətlərin bir-birinə yaxınlaşmasına yeni töhfələr verəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ



# Qarabağ yenidən yaşıl libas geyinir

## İşğaldan azad olunmuş ərazilərdə meşələr bərpa edilir, təzə yaşıllıqlar salınır

**Mənfur düşmən üç onillik ərzində işğal altında saxladığı ərazilərimizdə füsunkar meşələri, gözoxşayan yaşıllıqları, bar verən bağları da məhv edib. Hətta Azərbaycanın qələbəsindən sonra tərk etməli olduğu bölgələrdə meşələri yandırıb, meyvə ağaclarını kəsib doğrayıb.**

İndi Qarabağın və Şərqi Zəngəzurun yenidən tikilib qurulması işləri sırasında meşələrin və yaşıllıqların bərpası da vacib məsələlərdən biridir. Bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir və artıq xeyli iş görülüb. Məsələn, götürək elə Bəsitçay Dövlət Təbiət Qoruğunda aparılan işləri.

Qeyd edək ki, Bəsitçay Dövlət Təbiət Qoruğu Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə 1974-cü ildə yaradılıb və Azərbaycanın cənub-qərbində, Zəngilan rayonu ərazisində Bəsitçayın dərəsində yerləşir. Qoruq müvafiq ərazinin landşaft kompleksini, xüsusilə nadir təbii çinar meşəliyini qorumaq məqsədi ilə təşkil edilib, adını da Bəsitçaydan alıb.

Bəsitçay Dövlət Təbiət Qoruğunun 100 hektarı çinar meşələri olub. Ağaclar Bəsitçayın və onun qolu Şıxauzçayın dərəsində yerləşib. Burada həm təmiz, həm də qarışıq çinar meşəliyi yayılıb. Qarışıq çinarlıqlarda qoz, dağdağan, tut, söyüd, qovaq və digər ağaclar, yemişan, itburnu, murdarça, qaratikan kolları da bitir. Çinar ağaclarının orta yaşı 165 il, orta hündürlüyü 35 metr, orta diametri bir metrdir. Qoruğun ətraf sahələrində, bəzən də özündə canavar, çöl donuzu, porsuq, cüyür, dovşan, müxtəlif gəmiricilər və sair məməlilərə, kəklik, turac, göyərçin və digər quşlara rast gəlinib.

30 ilə yaxın bir müddətdə erməni vandallarının işğal altında saxladığı qoruq ciddi ekoloji terrora məruz qalıb. Zəfərimizdən sonra mövcud vəziyyətin qiymətləndirilməsi üçün işğaldan azad olunmuş ərazilərə ezamiyyətə göndərilən monitorinq qrupunun araşdırmaları göstərib ki, erməni vəhşiliyi nəticəsində qoruğa aid 85 hektar meşə ilə örtülü sahənin 42 hektardan çox hissəsi tamamilə məhv edilib. Çoxyaşlı Şərq çinarı ağacları kəsilib, köklərinin itirilməsi üçün müxtəlif partladıcı maddələrdən istifadə edilib, ərazidə yanğınlar törədilib və qoruğun inzibati binası dağıdılıb. Prezident İlham Əliyevin sərəncamı ilə qoruğun bərpa edilməsinə başlanıb. 2021-ci il fevralın 14-də dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva qoruğun ərazisində çinar ağacları əkiblər.

2022-ci il oktyabrın 20-də isə Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlqoyma mərasimi olub. Bu mərasim Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilib. Həmin gün Azərbaycan və Türkiyə Prezidentləri ərazidə ağac əkib, eləcə də əraziyə ceyranlar buraxıblar.

Məlumat üçün bildirək ki, işğaldan azad edilmiş ərazilərdə 2021-ci ildə qəbul edilmiş Azərbaycan-Türkiyə-Qarabağ Tədbirlər Planına uyğun olaraq bir sıra ikitərəfli tədbirlərin həyata keçirilməsinə başlanıb. Qeyd edildiyi kimi, həmin tədbirlər çərçivəsində, həmçinin "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin yaradılması nəzərdə tutulub. Bu məqsədlə yerli və türkiyəli mütəxəssislərlə birlikdə Cəbrayıl rayonunun Şükürbəyli-Cəbrayıl-Hadrut yolunun ətrafında 40 hektar ərazi seçilib. Ərazi dəniz səviyyəsindən 603 metr yüksəklikdə, Bakı şəhərindən 340 kilometr, Zəngilan Beynəlxalq Hava Limanından 72 kilometr, Füzuli Beynəlxalq Hava Limanından isə 35 kilometr məsafədə yerləşir.

Kompleksdə üç mərtəbədən ibarət Meşə Təlim Mərkəzində konfrans zalı, təlim otaqları, qonaq evi, ikimərtəbəli inzibati bina, laboratoriya, yeməkxana, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" yaradılacaq.

"Ağıllı Tingçilik"də qabaqcıl texnologiyalar əsasında istixanalar, toxum saxlama mərkəzi, qapalı kök sistemli ting istehsal sahələri, köçürmə sahələri, kölgələndirmə, soyuducu, qablaşdırma və gübrə anbarları, ting tədarük mərkəzi, təlim zonası, maşın və traktor təlim parkları inşa ediləcək. Burada il ərzində yerli iqlim şəraitinə uyğunlaşdırılmış 2 milyon müxtəlif ting yetişdirilərək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının meşə fondu torpaqlarında meşələrin salınmasında və yaşıllaşdırma işlərində istifadə olunacaq.

Meşələrin və yaşıllığın bərpası getdikcə işğaldan azad olunmuş digər bölgələrimizi də əhatə edir. Bu bölgələr isə ölkəmizin meşələrlə zəngin olan ərazilərindəndir. Prezident İlham Əliyevin dediyi kimi: "Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

İşlər də məhz bu istiqamətə uyğun davam edir. Elə ötən il həyata keçirilən tədbirlərdən bəzilərini qeyd etmək kifayətdir.

Sözügedən layihələrin həyata keçirildiyi əraziyə bitişik olan 31,4 hektar torpaq sahəsində Türkiyədən gətirilmiş ağac cinslərindən (Eldar şamı, qızılı şam, dağdağan, kipr akasiyası və s.) istifadə olunmaqla terras üsuli ilə 25,1 min ting əkilib. İndi həmin yaşıllıqlara aqrotexniki xidmət göstərilir, o cümlədən sahə mütəmadi suvarılır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında meşəbərpa tədbirləri çərçivəsində ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi planına uyğun olaraq payız əkini mövsümündə Cəbrayıl, Qubadlı, Füzuli və Zəngilan rayonlarında meşə fondu sahələrində əkin və səpin tədbirləri ilə bağlı işlər başlanıb.

Yeri gəlmişkən, keçən il Bəsitçay Dövlət Təbiət Qoruğunun 63 hektar (ümumilikdə 85 hektar) torpaq sahəsi mina və partlamamış hərbi sursatlardan təmizlənib. Qoruğun ərazisində minatəmizləmə əməliyyatları davam etdirilir.

Zəngilan şəhərinin giriş hissəsində 55 hektar, Ağdam şəhəri yaxınlığında 11 hektar sahədə yerli torpaq iqlim şəraitinə uyğun salınmış yaşıllığa aqrotexniki qaydalarda xidmər göstərilib. Bərpa-doldurma tədbirləri çərçivəsində Zəngilan rayonundakı yaşıllıq sahəsində 9,4 min, Ağdam rayonunun yaşıllıq sahəsində 1,4 min Eldar şamı tingi əkilib. Meşəbərpa işləri çərçivəsində isə Zəngilan rayonunda 42 hektar, Cəbrayıl rayonunda 15 hektar və Füzuli rayonunda 2 hektar ərazidə əkin və səpin işləri aparılıb. Cəbrayıl rayonunda 20 hektar ərazidə 6,2 min tingin əkilməsi ilə yeni yaşıllıq sahəsi salınıb.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərin ümumi və baş planlarının hazırlanması üçün Füzuli və Cəbrayıl rayonlarının ərazilərində ümumilikdə 301,1 hektar torpaq sahəsi ayrılıb. Bunun xeyli hissəsində artıq torpaq hazırlığı işləri görülüb.

"Yaşıl dünya naminə həmrəylik ili"ndə və ölkəmizin COP29-a evsahibliyi etməyə hazırlaşdığı bir vaxtda bu işlər xüsusi önəm daşıyır. Belə ki, Qarabağda və Şərqi Zəngəzurda aparılan yaşıllaşdırma işləri də dünyaya kimin kim olduğunu bir daha nümayiş etdirir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 128 min şəxsə 336 min xidmət göstərilib

**Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan sosial dəstək tədbirləri çərçivəsində postmüharibə dövründə:

* şəhid ailələri üzvləri və müharibə veteranları olan 105 min şəxsə 118 min aylıq sosial ödəniş, 22,7 min şəxsə birdəfəlik ödəmə təyin olunub;
* şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6 000 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 528 avtomobil təqdim edilib;
* şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 60 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib;
* müharibə ilə əlaqədar əlilliyi olan 2 105 şəxs 53,3 min reabilitasiya vasitəsi, o cümlədən 468 şəxs 489 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub;
* şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 21,4 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,5 min şəxs özünüməşğulluq proqramına cəlb olunub;

Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 128 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 336 min xidmət göstərilib.

## Daha 5 mikrosahibkar mənfəət və gəlir vergisindən azad edildi

**İndiyədək 135 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən daha 5 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib.**



"Startap" şəhadətnamələri "Vvonder Voyage" MMC-nin hotel və avtomobil rezervasiya platforması, "Kidfi" MMC-nin maliyyə savadlılığını və hesablama bacarıqlarını artıran onlayn platforma və mobil tətbiqi, "CM Elec Troniq" MMC-nin ultrasəs terapevtik arıqlama cihazının istehsalı, "4Youkid" MMC-nin psixoloji xidmətlər üçün onlayn platforması, fərdi sahibkar Ramil Qədirovun ətraf mühitin parametrlərinin qeydə alınması üçün nəzarət-ölçü cihazının istehsalı layihələri üçün təqdim edilib.

"Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir.

Qeyd edək ki, təkcə 2023-cü ildə 42 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib. Onlardan 39-u mikro, 3-ü kiçik sahibkarlıq subyektidir. Bu sənədi alan layihələr istehsal və xidmət sahələri üzrə innovativ həlləri özündə ehtiva edir. İndiyədək isə 135 KOB subyektinə "Startap" şəhadətnaməsi təqdim edilib.

# Sənayeləşmə sahəsində dəyərli tədqiqat əsəri

**Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu Elmi Şurasının qərarı ilə iqtisad elmləri doktoru, professor Tofiq Hüseynovun "Azərbaycanda sənayeləşdirmə: reallıqlar və perspektivlər" adlı monoqrafiyası nəşr olunmuşdur. Mühüm və aktual problemə həsr edilən monoqrafiyada 2012-ci ildə dövlət başçısı tərəfindən təsdiq edilmiş Azərbaycanın 2020-ci ilə qədər İnkişaf Konsepsiyasının, 2016-cı ildə təsdiqlənmiş Strateji Yol Xəritəsinin və regional dövlət proqramlarının icra səviyyəsi hərtərəfli araşdırılmışdır.**

Əsərdə həmçinin Azərbaycanda sənayeləşmənin inkişaf konsepsiyası, sənaye sektorunun, o cümlədən emal sənayesinin mövcud durumunun təhlili və qiymətləndirilməsi, sənaye parklarının və sənaye məhəllələrinin, aqroparkların və aqrar sektorda kooperativlərin yaradılması, regionların tarazlı inkişafında sənayeləşmənin rolu, ölkədə investisiya resurslarının formalaşması və istifadəsi, hökumətin investisiya siyasətinin xüsusiyyətləri, qeyri-neft emal sənayesinin xarici ticarət əlaqələri, ölkənin sənaye sahəsinin və məhsulunun rəqabət qabiliyyətinə aid məsələlər, sənayeləşmənin investisiya təminatı, Azərbaycanın sosial-iqtisadi inkişafının institusional tənzimləmə problemləri, sahəvi və ərazi klasterlərinin yaradılması istiqamətləri dərindən təhlil olunmuşdur. 500 səhifəlik əsərdə iqtisadi strukturun formalaşdırılmasında beynəlxalq təcrübə, ölkədə emal sənayesinin xammal bazası, ondan səmərəli istifadənin istiqamətləri, sənaye siyasəti, iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və digər aktual problemlər araşdırılaraq şərh edilmiş, müvafiq təklif və tövsiyələr irəli sürülmüşdür.

Müstəqillik dövründə Azərbaycanın sənaye sektorunda, xüsusən emal sənayesində əldə edilən uğurlar, yerli xammal və resurslardan istifadə, investisiyaların iqtisadi-sosial səmərəliliyi ətraflı araşdırılaraq müəyyən edilmişdir ki, 2022-ci ildə 1995-ci illə müqayisədə sənayedə məhsul istehsalı 4, o cümlədən emal sənayesində 3,8 dəfə artmışdır. Vurğulanmışdır ki, 2022-ci ildə 2003-cü ilə nisbətən ölkə üzrə emal sənayesi məhsullarının istehsalı da 1,5 dəfədən çox artaraq ümumi sənaye məhsulları istehsalında 21 faiz xüsusi çəkiyə malik olmuşdur.

Statistik informasiyaların təhlili və qiymətləndirilməsi ilə zəngin olan monoqrafiyada o da göstərilmişdir ki, 2004-2022-ci illərdə bütün maliyyə mənbələrindən ölkə iqtisadiyyatına 306 milyard dollardan çox investisiya qoyulmuşdur. Onların 50,7 faizi daxili investisiyalar olmuşdur. Bütün bu mənbələr hesabına 2003-2022-ci illərdə 335 sənaye obyekti, o cümlədən 279 qeyri-neft emal sənaye obyekti tikilib istifadəyə verilmişdir. Qeyri-neft emal sənaye obyektlərinin 91 faizi regionlarda yaradılmışdır. Müəllif yazır ki, 2003-2022-ci illərdə hökumət tərəfindən qeyri-neft emal sənaye sektorunun inkişafına xüsusi diqqət yetirilmişdir. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması neft-qaz sektoru ilə yanaşı, qeyri-neft sənaye sahələrinin də davamlı inkişafına şərait yaratmışdır.

Əsərdə emal və aqro-emal sektorlarının istehsal və xammal bazasının və onlar arasında səmərəli dəyər zəncirinin formalaşdırılmasına dair geniş və diqqətəlayiq tövsiyələr də verilmişdir.

Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunan monoqrafiya geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Müəllifin tövsiyələri mərkəzi idarəetmə orqanları, elmi-tədqiqat mərkəzləri tərəfindən iqtisadi siyasətin, iqtisadi inkişaf proqramlarının hazırlanmasında, habelə ali təhsil müəssisələrində istifadə oluna bilər.

*Beykəs XIDIROV,*
*Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun baş elmi işçisi, iqtisad elmləri doktoru*

# Azərbaycanda 153 su anbarı var

## Bu, təxminən bir o qədər həm də enerji mənbəyi deməkdir

**Hələ qədim zamanlardan insanlar suya olan ehtiyaclarını ödəmək və əkin sahələrini suvarmaq üçün bu gün "anbar" adlandırdığımız su strukturları inşa etmişlər. Azərbaycanda da Qanlıgöl adlanan ümumi su tutumu 0,9 milyon kubmetr olan ilk su anbarı təxminən 2 əsr əvvəl - 1864-cü ildə Naxçıvanda tikilmişdir.**

Hazırda isə ölkəmizin ərazisində irili-xırdalı 153 su anbarı var və onların ümumi su tutumu 21,9 milyard kubmetrdir. Su anbarları sel və daşqın sularını tənzimləmək və enerji istehsal etməklə insanların həyat fəaliyyətinin inkişafında, eləcə də ölkənin əkinçilik təsərrüfatında böyük əhəmiyyətə malikdir. Həm çayın məcrasında (məcra su anbarları), həm də ondan kənarda (məcradan kənar su anbarları) yaradılan su anbarlarının əksəriyyəti fəsillər üzrə nizamlanır, energetika, suvarma və içməli su məqsədilə istifadə olunur.

Enerji istehsalında təbii və ucuz mənbələrdən biri də su anbarıdır. Mingəçevir, Şəmkir, Yenikənd, Araz, Sərsəng, Ceyranbatan, Taxtakörpü, Ağstafa, Varvara, Qız qalası, Zoğalavaçay, Xanbulançay, Xaçınçay, Xudafərin, Suqovuşan su anbarları Azərbaycandakı böyük su təsərrüfatlarıdır. 2023-cü ilin aprelində Prezident İlham Əliyevin "Yengicə su anbarının tikilməsi haqqında" imzaladığı sərəncam bir daha təsdiq edir ki, bu cür su strukturları nə qədər çox olarsa, "yaşıl iqtisadiyyat"ın inkişafı ilə bağlı proqramlar, layihələr daha tez reallaşar.

Bu gün Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda su ehtiyatlarından maksimum səmərəli istifadə etmək niyyətindədir. Rəsmi məlumata görə, işğaldan azad edilmiş ərazilərdə 14 çay, 9 su anbarı, 7 sututarı mövcuddur. Araz, Bərgüşad, Tərtər, Həkəri, Oxçu, Lev, Zabux, Tutqun, Turağay, Bəsit, Qarqar, Quru, Xaçın və Köndələn çaylarının bəzilərinin üzərində Xudafərin, Sərsəng, Qız Qalası, Xaçınçay, Aşağı Köndələnçay, Suqovuşan, Köndələnçay-1, Köndələnçay-2 və Ağdamkənd su anbarları yerləşir. Onlardan ən böyüyü 1 milyard 612 milyon kubmetrlik Xudafərin su anbarıdır. Sadalanan su anbarlarının olması Qarabağ və Şərqi Zəngəzurda suvarma, içməli su və enerji təminatında çox mühüm əhəmiyyət kəsb edir.

Xəbər verildiyi kimi, hazırda Bakıda Su Həftəsi keçirilir. Tədbirdə su təminatı və su ehtiyatlarından səmərəli istifadə, eləcə də su ehtiyatlarının idarəedilməsi kimi vacib məsələlər müzakirə olunur. Su ehtiyatlarının idarə edilməsi həm ekoloji, həm də ölkənin su təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayır. Su təhlükəsizliyi, etibarlı və davamlı su təchizatına nail olunması Azərbaycanda dövlət siyasətinin prioritet sahələrindən birini təşkil edir.



30 illik işğal zamanı Ermənistan Azərbaycana qarşı su terroru da törədib. Demək olar ki, Qarabağ və Şərqi Zəngəzurdakı su ehtiyatları məhv edilib, istiqamətləri dəyişdirilib, su anbarları yararsız hala salınıb. Bu sahədə də işlərə start veriləndən qısa müddət sonra xeyli irəliləyiş əldə edilmişdir. Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov iki gün öncə Bakı Su Həftəsi beynəlxalq konfransının açılış mərasimində demişdir: "Azərbaycanda 20-yə yaxın su anbarının bərpa olunması nəzərdə tutulub. Hazırda onlardan 6-nın bərpa olunması istiqamətində işlər davam edir, 2-də işlər artıq başlamaq üzrədir, 12-də isə hazırlıq işləri bitmək üzrədir. Bundan başqa, 13 anbarın yenidənqurulması məsələsi var. Onlardan 2-si bərpa olunub. Paralel olaraq digər anbarların texniki-iqtisadi əsaslandırılması aparılır. Həkəri çayı üzərində Zabuxçay su anbarının tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasını və tikinti-quraşdırma işlərini Türkiyənin "Cengiz İnşaat Sənaye və Ticarət A.Ş." aparır. Bu işlərin görülməsi üçün şirkətlə 128,2 milyon manatlıq müqavilə imzalanıb".

Göründüyü kimi, gələcəkdə su ehtiyatlarını artırmaq və ekoloji təmiz enerji mənbələrindən istifadə etmək üçün su anbarlarının bərpası, yenilərinin inşası istiqamətində ölkəmizdə dayanmadan tədbirlər görülür.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*






# Gənclik






Uğura imza atanlar

## Dünyada ən gənc beynəlxalq dərəcəli hakim

**İdman siyasətini müəyyənləşdirən əsas amillərdən biri də müxtəlif idman növləri üzrə həmin ölkəni təmsil edən hakimlər kontingentinin olmasıdır. Birmənalı olaraq beynəlxalq yarışları idarə edən hakimlər davranışları, qərarları ilə mənsub olduğu xalqı, dövləti təmsil edirlər. Ədalətli qərarı ilə seçilən hakim beynəlxalq arenada ölkəsinin imicini formalaşdıran, mənsub olduğu xalq barədə təsəvvür yaradan simalardan olur...**



İdmançılar nə qədər məşq etsələr, yarışa hazır olsalar belə, hakim olmadan yarışlar keçirilə bilməz. Hakimin davranışı, düzgün və ədalətli qərarı görüşü daha maraqlı edir. Yarışın müqəddəratını həll edən də o olur. Son anda idmançı da, tamaşaçı da həyəcanla hakimin qərarını gözləyir.

SSRİ dönəmində Azərbaycanda Əhməddin Rəcəbli, Viktor Kuznetsov, Tərlan Həsənov və Rauf Şəfiyev kimi tanınmış hakimlərimiz olub. Bu da bir faktdır ki, azərbaycanlı olduqları üçün süni əngəllərlə onların beynəlxalq oyunları idarə etmələrinin qarşısı alınıb. Cəmi iki nəfər Zair Məmmədov və Valeh Məhərrəmov beynəlxalq dərəcəli hakim olub.

Müstəqillik dönəminin ən gənc, cüdo idman növü üzrə yeganə beynəlxalq dərəcəli hakimi Fariz Hüseynovla onun hakimlik və idman karyerasına birgə nəzər yetirdik.

Fariz Adil oğlu Hüseynov 1980-ci il iyulun 25-də Bakı şəhərində anadan olub. 1997-ci ildə 191 saylı orta məktəbi bitirib. Elə həmin il də Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olub. 2001-ci ildə akademiyanı bitirdikdən sonra Daxili Qoşunların "N" saylı hərbi hissəsində qulluq edib.

Fariz Hüseynov deyir ki, 6 yaşından idman gimnastikası ilə məşğul olub: "Bir qədər sonra karate məni özünə çəkdi. Uşaq olsam da, axtarışda idim. Sanki içimdə bir hiss deyirdi ki, Fariz, zaman gələcək sən idmançı kimi xalqını, dövlətini ləyaqətlə təmsil edəcəksən. Amma səni uğura aparan idman növü bu deyil. 14 yaşımdan DİN-nin "Dinamo" İdman Cəmiyyətində cüdo ilə məşğul olmağa başladım. Akademiyada oxuyarkən idman yarışlarının birində çiynimdən zədə aldım. Bu zədə idman karyeramda dəyişiklik etmək məcburiyyəti yaratdı. Əsas məsələ insanda güclü iradə və əzmin olmasıdır. Möhkəm iradə, çalışqanlıq uğura aparan yolun əsası olur... Mən də bu yolu seçdim".

Farizin aldığı zədə onu "təslim" edə bilmir. İdmana olan sevgisi onu məşqçiliyə aparır. 2002-ci ildə hərbi xidməti bitirdikdən sonra sərbəst güləş üzrə dünya kubokunun sahibi, o zamanlar "Dinamo" İdman Cəmiyyətinin sədri Rafiq Hacıyev Farizi məşqçi kimi çalışmaq üçün DC-yə dəvət edir. Firdovsi Tağıyevin rəhbərliyi altında məşqçilik fəaliyyətinə başlayan Fariz Hüseynov deyir ki, məşqçilik təklifi alanda düşündüm ki, bir idmançı kimi beynəlxalq yarışlarda özüm ölkəmi təmsil edib uğur qazana bilmədim, amma əvəzində elə idmançılar yetişdirim ki, onlar yarışlarda Azərbaycan bayrağını ucaltsınlar. İndi qürur duyuram ki, yetirmələrim beynəlxalq arenada ölkəmizi layiqincə təmsil edirlər.

Məşqçiliklə məşğul olan idmançı eyni zamanda hakimlik fəaliyyəti sahəsində də çalışır. Fariz deyir ki, ilk dəfə 2003-cü ildə yeniyetmələrin Bakı şəhər birinciliyində tatami üzərinə çıxıb hakim kimi görüşü idarə etdim. Bu debütüm uğurlu olmaqla yanaşı, mənim ömür yolumu müəyyən etdi...

2009-cu ildə Sloveniyanın Celje şəhərində hakimlər üçün keçirilən imtahanda iştirak edən Fariz Hüseynov "B" kateqoriyası üzrə beynəlxalq dərəcəli hakim statusu alır və ilk dəfə Balkıda keçirilən Dünya Kuboku yarışlarında ölkəmizi təmsil edir. 2012-ci ildə Monteneqronun Bar şəhərində yeniyetmələrin Avropa birinciliyi uğrunda yarışlarını idarə edir. 2013-cü ildə Estoniyanın Tallin şəhərində yeniyetmələrin Avropa çempionatının hakimi, elə həmin ili Niderlandın Utrec şəhərində Avropa Gənclər Olimpiya Festivalının EYOF hakimi olur.



2014-cü ildə Avstriyanın Obervard şəhərində hakimlər üçün təşkil olunmuş imtahanda iştirak edən həmyerlimiz "A" kateqoriyası üzrə beynəlxalq dərəcəli hakim statusuna sahiblənir. Fariz Hüseynov həmin ildən paracüdo üzrə də hakimlik etmək imkanı əldə edir. 2014-cü ildə Kolorado şəhərində təşkil olunmuş İBSA dünya çempionatının hakimlərindən biri də azərbaycanlı F.Hüseynov olur. Bu məqamda xüsusi olaraq qeyd edək ki, Fariz Paralimpiya Oyunları tarixində hakimlik edən ilk və yeganə azərbaycanlıdır.

Fariz Hüseynov indiyə kimi yüzlərlə beynəlxalq yarışmalarda orbitr kimi ölkəmizi şərəflə təmsil edib. 2009-cu ildə Bakıda keçirilən İslam Oyunlarında, eləcə də Avropa Oyunlarında, 2017-ci ildə Varşavada keçirilən Avropa çempionatında yarışı idarə edən hakimlərdən biri də xalqımızın yetirməsi Fariz Hüseynov olub.

Olimpiya Oyunlarını müxtəlif qitələr üzrə seçilmiş 16 hakim, Paralimpiya Oyunlarını isə dünyanın 12 hakimi idarə edir. Qürur duyulası faktdır ki, Rio-2016 Paralimpiya Oyunlarını idarə edən 12 cüdo hakimindən biri də həmyerlimiz Fariz Hüseynov olub. Qeyd etmək yerinə düşər ki, Fariz dünyada həm də beynəlxalq dərəcəli ən gənc hakim olması ilə fərqlənir.

Beynəlxalq dərəcəli hakim Fariz Hüseynov 2016-cı, 2017-ci, 2019-cu illərdə ilin ən yaxşı hakimi statusuna sahib olub. 2023-cü ildə ilin yekunlarına görə mükafatçılardan biri də yenə Fariz Hüseynovdu.

Həmyerlimiz Tokio-2020 Paralimpiya Oyunlarına dəvət alan hakimlərdən olsa da, o zaman COVID-19 pandemiyası səbəbindən həmin yarışlarda iştirak edə bilməyib.

Söhbət zamanı Fariz xüsusi olaraq qeyd etdi ki, cüdo idman növü üzrə beynəlxalq yarışlarda erməni idmançılar iştirak etsə də, bu idman növü üzrə bədnam qonşularımızda hələ beynəlxalq hakimə rast gəlməyib. Zəfər müharibəsindəki möhtəşəm qələbəmizə kimi yarışlarda iştirak edən erməni idmançılar bir başqa ədada idilər. Onların özündən razı hərəkətləri idmançılarımızın psixoloji durumuna təsirsiz keçmirdi. Açığını deyim ki, torpaqlarımızın illərlə işğalda olması, Birinci Qarabağ savaşındakı məğlubiyyətimizdən utanırdıq. Çox şükür ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımız işğaldan azad olundu. Qürur duyuruq ki, biz yalnız yumşaq tatami üzərində yox, döyüş meydanında da möhtəşəm qələbə qazanan xalqıq. Fəxr edirəm ki, yetirmələrimdən Qarabağ uğrunda döyüşlərdə iştirak edən, hətta canını qurban verənlər də var.

Beynəlxalq dərəcəli hakim Xorvatiyanın Poreç şəhərində keçiriləcək yeniyetmələrin Avropa kuboku uğrunda yarışlarını idarə etmək üçün səfərə hazırlaşır. Ölkəmizi beynəlxalq idman yarışlarında ləyaqətlə təmsil edib ədalətli qərarları ilə dövlətimizə və xalqımıza nüfuz qazandıran hakim Fariz Hüseynova uğurlar arzulayırıq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Gələcəyə dəstək

## Elm və yaradıcılıq yollarında uğurlu addımlar

**İnsan yaşadığı həyatı zəkası və təfəkkürü ilə dərk edir, məqsədinə çatmaq üçün bütün bacarığını ortaya qoyur. Buna görə də tale yollarında arzularının zirvəsinə ucalır. Belə insanlardan biri də gənc ziyalı xanımlar sırasında mövqeyi ilə seçilən filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının Gənc Alim və Mütəxəssislər Şurasının sədr müavini, eyni zamanda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Gənc Alim və Mütəxəssislər Şurasının sədri Şəfa Əliyevadır.**



O, 20 yanvar 1989-cu ildə Naxçıvan MR Ordubad rayonunda dünyaya göz açıb. 2011-ci ildə Bakı Slavyan Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" ixtisasının bakalavr pilləsini, 2013-cü ildə isə həmin təhsil ocağının ədəbiyyat nəzəriyyəsi ixtisasının magistratura pilləsini bitirib.

Şəfa xanım 2018-ci ildən AMEA-nın Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində əvvəlcə kiçik elmi işçi, elmi işçi, 2022-ci ildən isə böyük elmi işçi vəzifəsində çalışır. 2022-ci ildə filologiya elmləri doktoru, professor Tahirə Məmmədin rəhbərliyi ilə "Azərbaycan tənqidi realist dramaturgiyasında dialoq və monoloq" adlı dissertasiya işini müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi qazanıb.

Elmi işindən söz açan Şəfa Əliyeva dedi ki, ədəbi-nəzəri fikirdə tənqidi realizm XX əsrin başlanğıcında digər ədəbi cərəyanlarla, xüsusən romantizmlə bərabər parlaq dövrünü yaşayırdı. Həmin dövrün ədəbi irsi araşdırıldığı zaman dramaturgiya sahəsindəki nailiyyətlər, hətta klassik sənət nümunələri adlanmağa layiq, teatr-səhnə sənətinin inkişafına təkan verən əsərlərin məhz bu ədəbi cərəyana aid olması bunu bir daha sübuta yetirir.

Gənc alim onu da bildirdi ki, müəllif oxucuya informasiyanı dram əsərində, əsasən, dialoq və monoloqla ötürür, bu problemin araşdırılmasının əhəmiyyəti daha da anlaşıqlı olur. Şeir üçün misra, bənd, vəzn nə dərəcədə əhəmiyyətlidirsə, dramaturgiya üçün də monoloq və dialoq o qədər mühümdür. Ədəbi cərəyanlara uyğun olaraq dram əsərlərinin kompozisiya elementlərinin strukturunda, tipajlar aləmində və sairə komponentlərində dəyişmələr müşahidə olunduğu kimi, dialoq və monoloqlarda da spesifiklik özünü göstərir. Bu özünəməxsusluqların araşdırılıb sistemləşdirilməsi problemi dissertasiya işinin aktuallığını daha artırırdı.

Şəfa Əliyeva elmi işində bu sahəni geniş tədqiq etmiş, maraqlı bir iş yazmış və əldə etdiyi nəticələri ümumiləşdirmişdir. Ədəbiyyatşünaslar gənc alimin elmi işinə yüksək dəyər vermişlər.

2015-ci ildə Şəfa Əliyeva Albaniyanın paytaxtı Tirana şəhərində Beder Universitetinin təşkilatçılığı ilə keçirilən simpoziumda "Eleştirel gerçekçilik ve çağdaş edebi-teorik bakış" türk dilindəki çıxışı iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

Bundan başqa, Şəfa Əliyeva 2021-ci ilin noyabrından Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Gənc Alim və Mütəxəssislər Şurasının sədri kimi fəaliyyətə başlayıb. AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının 2022-ci ilin aprelində keçirilmiş iclasında o, həm də Humanitar Elmlər Bölməsinin elmi katibi təyin edilmişdir. 2022-2023-cü tədris ili ərzində Şəfa xanım Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və ABŞ Dövlət Departamentinin Virtual İngilis Dili Müəllimi Proqramını uğurla bitirərək sertifikat almışdır. AMEA-nın Rəyasət Heyətinin 13 mart 2023-cü il tarixli qərarı ilə o, Elm Günündə "İlin gənc alimi" diplomuna layiq görülmüşdür.

2023-cü ildə "Heydər Əliyev İli" çərçivəsində Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin keçirdiyi tədbirdə Şəfa xanım "Müasir Azərbaycan gəncliyinin inkişafında Heydər Əliyev fenomeni" adlı məruzə ilə çıxış etmişdir. "Heydər Əliyevin idealları və müasir gənclik" adlı məruzəsini isə iştirakçılar ingilis dilində dinləmişdilər.

O, 2023-cü ildən Ədəbiyyat İnstitutu üzrə ERASMUS +(Erasmus plyus) proqramının koordinatorudur. Həmin ilin noyabrında Avropa və Asiyadan olan gənc alimlərin MDB İcraiyyə Komitəsinin tərəfdaşlığı, Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyası və Rusiya Federasiyasının Avrasiya İqtisadi İttifaqının həmsədrliyi ilə Moskva şəhərində "Elm Qitəsi" akademik forumunda iştirak etmişdir. "İrsin qorunması" elmi panelində "Poetik və dramatik əsərlərdə bədii təkrarın üslubi funksiyası" mövzusunda çıxış etmişdir.

Filologiya üzrə fəlsəfə doktoru Şəfa Əliyeva elmi əsərlərini Azərbaycan, türk, rus və ingilis dillərində yazır. Gənc alim 30-dan çox elmi əsərin müəllifidir. Yaxın günlərdə onun "Dramatik nitqin komponentləri" adlı monoqrafiyası işıq üzü görəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

İstedadlar

## "Sənətkar ömrü səhnədə başlayıb səhnədə bitir"

**Onunla ilk dəfə elə indi çalışdığı Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində "Heydər Əliyev İli" çərçivəsində təşkil olunmuş "Sən elə bir zirvəsən ki..." adlı konsertdə rastlaşmışdıq.**



Rəşid Behbudovun repertuarından səsləndirdiyi "Azərbaycan" mahnısı ilə tamaşaçıları gerçəkdən səsinin sehrinə salmışdı. Məlahətli səsi, gözəl avazı, bənzərsiz ifası ilə tamaşaçıları təəccübləndirən bu gəncin İbrahim Zakir oğlu Əlizadə olduğunu öyrənirik. İbrahim Əlizadə 1993-cü ildə Bakıda musiqiçi ailəsində dünyaya gəlib. Anası Qəmərxanım Əliyeva Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin pianino şöbəsini bitirib. Hazırda Amerikada yaşayan dayısı İmamyar Həsənov məşhur kaman ifaçısıdır.

İbrahim deyir ki, musiqi mənim ruhum, canımdır. Həyatımın mənasını musiqidə görürəm, hər dəfə səhnəyə çıxanda özümü dünyanın ən xoşbəxti sanıram. Musiqisiz, səhnəsiz həyatımı təsəvvür edə bilmirəm.

Səhnəyə gəlişini xatırlayan İbrahim Əlizadə deyir: "Məşhur türk müğənnisi İbrahim Tatlısəs atamın kumiri idi. 1995-ci ildə İbrahim Tatlısəs Bakıda konsert verirdi. Atam məni gül vermək üçün səhnəyə çıxartdı. Nə sehrdir bilmirəm, səhnə məni tutdu. Bir anlığa mənə elə gəldi ki, ömür yolum bu səhnədən keçəcək. Musiqiyə olan maraq məni Bülbül adına Orta İxtisas Musiqi Məktəbinə apardı. Musiqi məktəbində oxuyarkən solfecio üzrə birinci yeri tutdum. Müğənni kimi ilk debütüm Rəşid Behbudovun repertuarından olan "Azərbaycan" mahnısı olub. 2008-2010-cu illərdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Bəstəkarlar İttifaqının birgə təşkil etdiyi "Ötən illərin mahnıları" Azərbaycan peşəkar bəstəkarlarının mahnılarından ibarət retro musiqi festivalında Dənizçilər Mədəniyyət Evində "Yelkən" vokal studiyasının üzvü kimi uğurlu çıxışıma gorə diplomla təltif olundum".

Ukraynanın Xarkov Dövlət Mədəniyyət Akademiyasında ali təhsil alan İbrahim Əlizadə tələbəlik illərində azərbaycanlı gənclər təşkilatının (SAMU) üzvü kimi Xarkov şəhərində Xocalı soyqırımına həsr olunmuş tədbirin təşkilatçılarından olub. 2010-cu il "Xalq ulduzu" yarışmasının iştirakçısı olaraq 7 həftə efirdə birincilik uğrunda mübarizə aparıb. 2012-ci ildə Beynəlxalq "DANS SONG FEST" yarışmasında 15 ölkə arasından 1-ci yerə sahib olub.

İbrahim 2016-ci ildə Bakıda türk mahnılarından ibarət "IBO SHOW" adlı solo konsert verib. 2022-ci ildə "Budu jite v Ukraine" yarışmasında münsiflər heyətinin üzvi olub. Eyni zamanda həmin yarışmada "Ən gözəl mahnı ifaçısı" mükafatına da layiq görülüb.

İbrahim Əlizadə deyir ki, dövlətimizin başçısı 2019-cu il Musiqili Teatra "Akademik"



statusu verərək kollektivimizi mükafatlandırdı. Rejissor Samir Qulamovun müəllifi və quruluşçu rejissoru olduğu Paris Notrdama ithaf olunan tamaşanı sənət bioqrafiyamda əsl hadisə hesab edirəm. Adıgedən tamaşada Don Klod Frollo obrazının yaradıcısıyam. Xatırladaq ki, İbrahim Əlizadə bu rolu 26 yaşında oynayan yeganə aktyordur.

Aktyor üçün səhnə nəfəsdir, həyatdır, bir yaşam tərzidir...

2017-ci ildən Azərbaycan Dövlət Akademik Musiqili Teatrında artist-vokalist kimi çalışan İbrahim Əlizadə qısa zaman ərzində müxtəlif tamaşalarda oynadığı maraqlı obrazlarla yaddaşlara öz adını yaza bilən sənətkarlardandır. Bu illər ərzində o, Akademik Musiqili Teatrın səhnəsində Süleyman ("Arşın mal alan" Ü.Hacıbəyli), Ordan-bura ("Balaca Şahzadə" A.Ekzüperi, R.Ağababayev), Keşiş Don Klod ("Paris Notr-dama ithaf" V.Hüqo, libretto müəllifi və quruluşçu rejissor S.Qulamov), Nadir ("Beş manatlıq gəlin" S.Rüstəmov, M.S.Ordubadi), Cəlil ("Amerikalı kürəkən" R.Mirişli, M.Haqverdiyev), Murad ("Baladadaşın toy hamamı" Elçin), Hərbi komissar ("Bir nəfəs qədər" S.Qulamov) rollarını ifa etmişdir. "Bəxtiyar" tamaşasında Bəxtiyar və "Leyli və Məcnun" tamaşasında İbn Salam obrazlarını ustalıqla ifa edib. 2021-ci ilin mart ayında 31 Mart Soyqırımı Gününə həsr olunmuş "Sündü" filminə çəkilib.

İbrahim deyir ki, əsl sənətkarların ömrü səhnə ilə başlayıb, səhnədə də bitir. İnsan gərək sevib-seçdiyi sənətinin vurğunu ola. Çalışıram ki, Tanrının mənə verdiyi ömrü ləyaqətlə yaşayım. Məni tanıyanların, sənətimi sevənlərin yaddaşında əbədi olaraq sənətini sevən əsl sənətkar kimi yaşayım.

*E.QƏNİYEV,*
*"Azərbaycan"*

## ASAP Kanadada "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Gənclər Forumu keçirib



Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi, Azərbaycanlı Tələbələr və Məzunlar Platforması (ASAP), Kanadada fəaliyyət göstərən Azərbaycanlı Tələbələr Assosiasiyası və "Vətən" Azərbaycan Mədəniyyət və İncəsənət Mərkəzinin birgə təşkilatçılığı ilə Kanadanın Toronto Universitetində "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində gənclər forumu keçirilib. ASAP-dan bildirilib ki, 100-ə yaxın gəncin iştirakı ilə keçirilən forumda çıxış edən Milli Məclisin deputatı, COP29 üzrə Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişikliyi üzrə Yüksək Səviyyəli Çempionu (UN Climate Change High-Level Champion) Nigar Arpadarai ekoloji proseslərdə gənclərin rolu və təhsilin əhəmiyyəti, ictimaiyyətin iştirakı, korporativ məsuliyyət kimi mövzulardan danışıb, COP29-un iqlim dəyişikliyinin azaldılmasına və yaşıl təcrübələrin təşviqinə yönəlmiş qlobal təşəbbüslərin təşviqində Azərbaycanın fəal rolunu vurğulayıb.

Forumda, eyni zamanda COP29 tədbirinin ölkəmizdə keçirilməsinin gənclər üçün yaratdığı imkanlar, beynəlxalq miqyasda gənclər arasında birgə təşəbbüs və əməkdaşlığın vacibliyi barədə fikir mübadiləsi aparılıb.

## İtaliyada lisenziya turnirində iştirak edən Azərbaycan boksçuları Vətənə qayıdıblar



İtaliyanın Busto Arsizio şəhərində keçirilən I Dünya Olimpiya Təsnifat Turnirində iştirak edən Azərbaycan milli komandası Vətənə qayıdıb. Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, yığmanı Heydər Əliyev Beynəlxalq Hava Limanında federasiya nümayəndələri, Gənclər və İdman Nazirliyinin əməkdaşları, idman ictimaiyyətinin nümayəndələri, boksseverlər və idmançıların ailə üzvləri qarşılayıblar.

Federasiya prezidentinin müşaviri Samir Hüseynov bildirib ki, komandamızın yarışda çıxışı çox yüksək qiymətləndirilməlidir: "113 ölkə arasında lisenziya qazanmaq təqdirəlayiq haldır. Nəzərə alaq ki, bir çox ölkə, o cümlədən Ermənistan və Gürcüstan vəsiqəyə sahib ola bilmədi. İndiyədək kişilər arasında 3 lisenziya qazanmaqla, dünya ölkələri sırasında 7-11-ci yerləri bölüşürük. Əminik ki, Tailandda keçiriləcək növbəti təsnifat turnirində digər 4 çəkidə də uğur qazana biləcəyik. Eyni zamanda qadın boksçulardan ibarət milli üçün də əlavə proqram hazırlamışıq. Onların da lisenziya qazanacaqlarına ümid edirik. Əminik ki, "Paris-2024"ə kişi boksçularımız maksimum vəsiqə ilə yollanacaq".

O, son illərdə federasiyanın fəaliyyətində ciddi dəyişikliklər olduğunu, aparılan islahatlar nəticəsində Avropa və dünya çempionatlarında kifayət qədər ciddi nailiyyətlər əldə edildiyini, 2022-ci ildə 77 medal, bir il sonra bu rəqəmin 179-a yüksəldiyini də vurğulayıb: "Bu, göstərir ki, apardığımız siyasət doğrudur. "Paris-2024"də nəticələr daha da yaxşı olacaq".

# Məktublar: problemlər, rəylər, təkliflər...



● CƏMİYYƏT

## Kənd məktəbi ünvan kimi təsadüfən seçilməmişdir

**Cəlilabadın Kazımabad kənd tam orta məktəbində rayon icra hakimiyyətinin təşkilatçılığı ilə "Erkən nikahlar ailə dəyərlərinə xələl gətirir" mövzusunda maarifləndirici tədbir keçirilib.**





Tədbirdə rayon icra hakimiyyəti başçısı aparatının Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Xumarə Xəlilova, həmin komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu Günay İbadova, Kazımabad kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Ceyhun Rəhimov, Göytəpə polis bölməsinin yetkinlik yaşına çatmayanların işləri üzrə inspektoru Behnam Əmirov, rayon təhsil sektorunun aparıcı-məsləhətçisi Tacəddin Əli, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbənin baş məsləhətçisi Cavidan Rəşidov, rayon Gənclər və idman sektorunun əməkdaşı Salamat Nəcəfov iştirak ediblər.

Erkən nikahların həm sosial, həm mənəvi, həm də sağlamlıq baxımından zərərləri barədə geniş müzakirələrin aparıldığı tədbirdə vurğulanıb ki, yeniyetmə yaşında ailə quran insan həyatın ritmini pozmuş olur. Orta məktəbi bitirmək, təhsili ali və orta ixtisas məktəblərində davam etdirib mütəxəssis kimi yetişmək, bilik və bacarıqları cəmiyyətin inkişafı istiqamətində yönəltmək hər bir yeniyetmə və gəncin strateji hədəfi olmalıdır. Lakin erkən nikahlar bu hədəfə çatmaqda ən böyük maneədir. Bildirilib ki, erkən yaşda qurulan nikahlar yeniyetmələrin sağlamlığına, gələcək həyatlarına ciddi mənfi təsir göstərməklə yanaşı, ailədaxili zorakılıq hallarına da gətirib çıxarır. Çünki insanın dünyagörüşü 18 yaşından sonra formalaşmağa başlayır. İnsanda bu yaşadək ailə haqqında təsəvvürlər ya olmur, ya da yanlış olur. Son dövrlər artan intihar hadisələri, qadınlara qarşı şiddət hallarının böyük əksəriyyəti məhz müqəddəs ailə prinsiplərinin dağılmasının nəticəsidir. Çıxış edənlər həmçinin erkən yaşlarda nikaha daxil olan yeniyetmələrin reproduktiv sağlamlıqla bağlı problemlər yaşamasından, ana və uşaq ölümlərindən danışıblar. O da vurğulanıb ki, son illər Azərbaycanda həm erkən nikahların, həm də yeniyetmə dövründə dünyaya övlad gətirən qadınların sayı artıb. Gələcək nəsillərin sağlamlıq vəziyyəti isə yeniyetmə qızların - gələcək anaların sağlamlığından birbaşa asılıdır.

Tədbirdə, habelə erkən nikah problemi ilə bağlı aparılan elmi-analitik araşdırmalar və bu problemin qarşısının alınması məqsədilə son illər həyata keçirilən tədbirlər, eləcə də erkən nikahla mübarizə yolları barədə məlumat verilib. Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*Ağaddin BABAYEV,*
*Cəlilabad rayon sakini*

AZƏRBAYCAN-a cavab verirlər

## Problem həll olunmuşdur

**Sizin Biləcəri bələdiyyəsinə daxil olmuş müraciətinizə baxılmışdır.**

Bildiririk ki, Binəqədi rayonunda abadlıq-quruculuq işlərinin görülməsi, sosial layihələrin həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlər görülməkdədir. Eləcə də Biləcəri qəsəbəsində əhalini narahat edən problemlərin həlli istiqamətində təxirəsalınmaz addımlar atılır. Son dövrlər qəsəbənin bir çox küçələrində asfaltlanma işləri aparılmışdır. Aparılan asfaltlanma işləri təsdiq olunmuş layihə əsasında mərhələlərlə həyata keçirilir.

Qəzetinizin 29.09.2023-cü il tarixli sayında dərc edilmiş "Fotofakt"da qaldırılmış məsələ də artıq həllini tapmış və yolun təmirə ehtiyacı olan hissələri asfaltlanmışdır.

*Ehtibar CABBAROV,*
*Biləcəri Bələdiyyəsinin sədri*

● MƏMNUNLUQ

## Tibb işçilərinin pasiyentlərə diqqəti ən xoş sözlərə layiqdir

**40 ilə yaxındır ki, Sumqayıtda yaşayıram. Özüm Birinci Qarabağ müharibəsi iştirakçısıyam. Son illər səhhətimdə problemlər yaranmışdı. Müharibə veteranı kimi bizə göstərilən qayğıdan narazılığım yoxdur. Amma bəzən bir həkimin yanına gedəndə hansısa aparatdan keçmək üçün müxtəlif klinikalara müraciət etməli olurdum.**







Prezident İlham Əliyevin şəhərimizə son səfəri zamanı açılışını edərək istifadəyə verdiyi 2 saylı Sumqayıt Şəhər Xəstəxanasında olmamışdım. Veteran yoldaşlardan birinin məsləhəti ilə oraya üz tutdum. Xəstəxananın yerləşdiyi ərazi dənizə yaxındır. Təmiz dəniz havası buraları daha cazibədar edir.

Xəstəxanada 150 çarpayılıq terapiya, laboratoriya, şüa diaqnostikası və başqa şöbələr fəaliyyət göstərir. Qəbul şöbəsindən məni müxtəlif otaqlara yönləndirdilər. Bir neçə saat ərzində tam yoxlamadan keçdim. Sonda həkimin qoyduğu diaqnoza uyğun müalicə yazıldı. Elə dərmanları da xəstəxananın yaxınlığındakı aptekdən aldım. Bu rahatlıq o qədər mənə xoş gəldi ki, geri dönəndə sanki sağalmışdım. Bizə belə şərait yaradanlara minnətdarlığımı bildirmək istəyirəm. Həkim və digər tibb personalının gülər üzləri, xəstəni müşayiət etmələri və qəbul zamanı göstərdikləri diqqət ən xoş sözlərə layiqdir.

*Bakir MƏMMƏDOV,*
*Qarabağ müharibəsi veteranı, Sumqayıt şəhər sakini*

● Fotoreportaj

## Novruz yarmarkası



*Fotolar İlham BABAYEVİNDİR*

Bakıda hər il baharın müjdəsini "Nargis Fund"un təşkilatçılığı ilə Fəvvarələr meydanında təşkil edilən "Torpaq əlimdə, bahar ürəyimdə" yarmarkası verir. Burada martın əvvəlindən etibarən paytaxt sakinlərinə əsl Novruz ab-havası bəxş edilir. Hər il şəhərin mərkəzində yaradılan yarmarkada əyləncə ilə bərabər, bir çox ailəyə sevinc və ümid bəxş olunur.

"Nargis" fondunun təşəbbüsü ilə keçirilən yarmarka xeyriyyə məqsədi daşıyır və toplanan vəsait, əsasən, sağlamlıq problemi olan uşaqların müalicəsinə sərf edilir. Bu il təqdim olunan köşklər daha fərqli formada quraşdırılıb və yeniliklərlə zəngindir. Yarmarkada 35 böyük və 20 kiçik guşə, ikimərtəbəli 3 restoran fəaliyyət göstərir. Novruz bayramına aid müxtəlif konstruksiyalar və elementlər, balaca köşklər, oyun zonası, fotozona, 4D kinoteatr, "Qorxu evi", "Labirint otağı" və müxtəlif mövzulu guşələr də qonaqların ixtiyarına verilib. Şəhərimizə gələn əcnəbi qonaqlar və yerli sakinlər Novruz atributları olan səməninin, şəkərbura, paxlava, qoğalın önündə şəkil çəkdirməkdən zövq alırlar. Amma yarmarkanın əsas ziyarətçiləri gənclər və valideynləri ilə şəkil çəkdirməyə gələn uşaqlardır. Onların bayram sevincini müxtəlif köşklərdə satılan oyuncaqlar, "fast-food"lar, buradakı rəngarənglik daha da rövnəqləndirir. Eyni zamanda yarmarkanın qonaqları növbənöv ləziz təamları, eksklüziv suvenirlər və hədiyyələri münasib qiymətə əldə edə bilirlər. Hər yaşa uyğun fotozonalar, oyun guşələri insanların bayram sevincini daha da artırır. Yarmarka martın 31-dək davam edəcək.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

● MİNNƏTDARLIQ

## Kəndimiz sel təhlükəsindən xilas oldu

**Rayon icra hakimiyyətinin başçısı kəndimizdə səyyar görüş keçirərkən çox vacib bir məsələni onun diqqətinə çatdırdıq. Bildirdilər ki, yaz aylarında sel suları kəndi birləşdirən körpünün ətrafına kol-kos və məişət tullantıları gətirir və bunun da nəticəsində çayın su buraxma qabiliyyəti azalır. Belə halda çayda sululuq artan zaman evlərə və təsərrüfatlara təhlükə yaranır.**



Çox çəkmədi ki, rayon rəhbərliyi bu vacib məsələ ilə əlaqədar tədbirlər gördü. Yaradılmış komissiya məqsədyönlü işlərə başladı. Əraziyə baxış keçirildi. Mövcud problemin aradan qaldırılması məqsədilə suvarma sistemləri idarəsinin işçi qüvvəsi tərəfindən müvafiq işlər həyata keçirildi. Bununla da kəndin problemi həll edildi.

Qarşıdan yaz ayları gəlir. Məlum məsələdir ki, yenə də yağış sularının yaratdığı sel həmin ərazidən keçəcək. Ancaq sevinirik ki, artıq kənd üçün heç bir təhlükə yoxdur.

*Mürsəl İBRAHİMOV,*
*Goranboy rayon Şadıllı kənd sakini*

● Giley

## Aranın yoluna baxan yoxdur

**Yaşadığımız Aran qəsəbəsi Yevlax rayonuna aid olan yaşayış massividir. Əvvəllər qəsəbəmiz ərazi baxımından kiçik idi. Yeni tikilən evlər sayəsində bu gün qəsəbəmizdə minlərlə insan yaşayır.**

Mən magistral yolunun üstündə yerləşən bu qəsəbədə doğulub böyümüşəm. Əvvəllər iki ildən bir gəlib yolları təmir edir, su arxlarını təmizləyərdilər. Həmin dövrlərdə yoldan keçən maşınlar dayanaraq müxtəlif alış-veriş də edərdilər ki, bu da bizim üçün əlavə qazanc demək idi. 90-cı illərdən başlayaraq təmir işləri beş ildən bir görülməyə başladı. Son on ildə isə bu yolların bir metri də təmir edilməyib. Əvəzində qəsəbənin girəcəyinə on il əvvəl istinad divarı çəkilib və o divardan içəridə heç bir iş görülməyib. Qəsəbənin girəcəyində iki şəhidimizin xatirə lövhəsi var. Onun ətrafını öz gücümüzə abadlaşdırmışıq. İçərilərə doğru ara yollar isə bataqlıqdan seçilmir. Hətta təcili tibbi yardım maşınları qəsəbənin çağırışlarına gəlməkdən imtina edir. Onları qınamırıq, çünki bir neçə dəfə gecə palçığın içində batıb qalıblar. İşıqlandırma sistemləri də köhnəldiyindən palçıqlı yollar gecələr zülmətə bürünür.

*İsmayıl GÜLMALIYEV,*
*Yevlax rayon Aran qəsəbə sakini*

● İstək

## İşıqfor olarsa...



**İllərdir taksi fəaliyyəti ilə məşğulam. Sumqayıt, Abşeron və Bakı arasında gün ərzində bir neçə dəfə dolanıram. Yolları rahat və abaddır. Tıxac olmasa, elə ciddi problem yaşamıram.**

Bununla belə, arzularım da var. Məsələn, Abşerondan keçib Masazır duz gölünün yanından Sumqayıt istiqamətindəki yol ensizdir. Saray qəsəbəsinin içindən keçən həmin yolda son illər hərəkət edən maşınların sayı isə xeyli artıb. Hətta səhər və axşam həmin ərazidə tıxac da yaşanır. Hazırda həmin ərazidə yeni yüksək mərtəbəli binalar inşa edilir. Deməli, ərazidə maşınların sayı bir qədər də artacaq və nəticədə hərəkət çətinləşəcək.

Heydər Əliyev və Mirzə Ələkbər Sabir küçələrinin kəsişdiyi yer isə maşınların təhlükə ilə üzləşdiyi ərazidir. Üçtərəfli hərəkət çevrəsi yenə gündüz bir qədər görünür. Hava qaralandan sonra üç istiqamətdə hərəkətin işıqları bir-birini kəsir. İlk dəfə buradan keçən sürücü həmin dairəyə yaxınlaşıb hərəkət nişanlarını axtarana qədər ya qəza şəraiti yaradır, ya da qaydaları pozmuş olur. Hər üç hərəkət zolağında göstərici olmadığına görə ümid yalnız sürücünün təcrübəsinə qalır. Dəfələrlə həmin ərazidən keçəndə qəzadan güclə yan keçə bilmişəm, o da əraziyə bələd olduğum üçün.

Arzum budur ki, həmin yerdə hərəkəti nizamlayan işıqfor quraşdırılsın. Belə olarsa, həm təhlükə aradan qalxar, həm də piyadaların və sürücülərin işi yüngülləşər.

*Ramiz İBRAHİMOV,*
*Abşeron rayon sakini*

● PROBLEM

## Lerikdə bulaqların çəpərlənməsi kəndləri susuz qoyub

**Lerik rayonunun dağ kəndlərində adam var ki, başqasına məxsus torpaq sahəsini heç nədən çəkinmədən çəpərə salır. Buna etiraz edənlərə isə məhəl qoymur.**



Beləcə, rayonun yamacları, dərə kənarları, su hövzələri, mal-qaranın otlaq sahələri, hətta yollar özbaşına çəpərlənir. Bunun nəticəsidir ki, 10 bulağı olan kənd hazırda su sarıdan əziyyət çəkir. Çünki zəncirlənmiş bulaqlara yaxın durmaq olmur, üstəlik, bu səbəbdən boş yerə axdıqları üçün ətraflarında böyük bataqlıq yaranır, torpağın eroziyaya uğramasına səbəb olur. Ən qəribəsi isə odur ki, "işğalçı"lar yalnız yaydan-yaya bura gəlirlər.

İndi gözü tutulmuş saf çeşmələr imdad istəyirlər. Sadə camaatın isə onlara kömək etməyə gücü çatmır. Ona görə də "Azərbaycan" qəzetinə müraciət edirik ki, kənd camaatının səsini əlaqədar qurumlara çatdırsın.

*İlyas QURBANOV (Bradi kənd sakini),*
*Əminağa BABAYEV (Daster kənd sakini),*
*Adil ƏMƏNOV (Daster kənd sakini),*
*Güloğlan BABAYEV (Bradi kənd sakini)*

● NARAZILIQ

## Qovlar Ailə Sağlamlıq Mərkəzinin sağlam münasibətə ehtiyacı var

**Qovlar şəhəri Tovuzun ən böyük yaşayış məntəqələrindəndir. Əhalisinin sayına görə şəhər statusu alan Qovlarda son zamanlar böyük abadlıq və quruculuq işləri görülmüş, əhalinin məişət məsələləri demək olar ki, həll edilmişdir. Şəhərdə qaz, işıq, su problemi yoxdur.**



Hörmətli redaksiya! Görülən bütün bu müsbət işlər söz yox ki, razılıqla qarşılanır. Lakin bir məsələ illərdir öz həllini tapmır. Bu da şəhərdəki Ailə Sağlamlıq Mərkəzinin qəzalı binada yerləşməsidir. Sovetlər dönəmində inşa edilən ikimərtəbəli bina təhlükəli vəziyyətdədir. O səbəbdən xeyli vaxtdır ki, binanın ikinci mərtəbəsi bağlıdır. Ümumiyyətlə, uzun illər şəhər sakinlərinin sağlamlığına xidmət göstərən bu səhiyyə ocağının indi özünün "müalicə"yə ehtiyacı var. Tibb avadanlıqları köhnə olduğundan istifadəyə yararsızdır. Odur ki, mərkəzə müraciət edənlərin də sayı gündən-günə azalır. Xəstələr məcbur olub rayon mərkəzinə üz tuturlar.

Hörmətli redaksiya! Çıxılmaz vəziyyətdə qalmışıq. Bilmirik ki, səhiyyə ocağının təmiri üçün kimə müraciət edək. Səhiyyə Nazirliyinə, yoxsa TƏBİB-ə. Xahiş edirik bu işdə qovlarlılara kömək göstərəsiniz.

*Əli ABBASOV,*
*Tovuz rayon Qovlar şəhər sakini*

00:00 "Bayer"(Almaniya) - "Qarabağ" (Azərbaycan) (ilk oyun 2:2)
Baş hakim: Entoni Teylor (İngiltərə)
"BayArena" Stadionu, Leverkuzen

# "Bayer"i üstələmək mümkündürmü?

## Çox çətin olsa da, niyə də yox...

UEFA Avropa Liqası 1/8 final, cavab oyunu



**Bu gün Ağdamın"Qarabağ" klubu UEFA Avropa Liqasının 1/8 finalının cavab oyununda Almaniyada "Bayer"in (Leverkuzen) qonağı olacaq. Bir həftə öncə Bakıda 2:2 hesabı ilə başa çatan ilk matçın revanşında rəqib güclü olsa da, əsas "Qarabağ"ın nə edəcəyi önəmlidir.**

Bakıdakı ilk qarşılaşmada "Qarabağ" əsas heyət üzvlərindən 4-nü rotasiya edərək oyuna çıxan "Bayer"ə qarşı boş zona demək olar ki buraxmadı. Rəqibin müdafiə xəttinin irəli çıxmağından maksimum yararlandı və zamanında ötürmə ilə sürətli əks hücumlar etdi. Amma ikinci hissədə komanda olaraq sürətə tab gətirə bilmədi.

Bu matçda da ikinci zonada daha yaxşı təsir bağışlamaq lazımdır. Müdafiə xətti ilə yarımmüdafiə arasında məsafə uzun olmamalıdır. Əgər uzun olarsa, işimiz çətin olacaq. "Qarabağ" topu özündə daha çox saxlamağa çalışarsa, rəqibin hücum ritmini poza bilər. Romao-Marko Yankoviç tandemi komandamız üçün çox böyük üstünlükdür. Çünki mərkəzdə rəqibi bəzi məqamlarda daha sərt futbolla qarşılamaq lazımdır. Bu isə Romaoda daha yaxşı alınır.

"Bayer" hakimin start fitindən sonra ilk dəqiqələrdən oyuna nəzarəti özündə saxlamağa çalışacaq. Leverkuzenlilər topa davamlı sahiblənən, topun meydanın rəqibə aid hissəsində qalma faizi yüksək olan kollektivdir. Almaniya çempionatında lider olmaqla yanaşı, nümayiş etdirdiyi oyun təqdirəlayiqdir. Biri var, rəqibə görə oyun anlayışı, biri də var, öz oyun planın. 3-4-3 oyun formatı, xüsusilə cinahdan təşkil edilən hücumlarla istənilən rəqibə qarşı başağrısı ola bilərlər. Qrimaldo və Frimponqun cinahlardan hücuma qoşulması, bu fonda yarımmüdafiədə yer alan Hofmanla Virtzin mərkəzə doğru meyillənməsi həmin futbolçulara boş "dəhlizlər" yaradır.

Ümumiyyətlə, cari mövsümün əvvəlində Alonsunun təkidi ilə heyətə cəlb edilən Qranit Caka və Alexandro Qrimaldo komandanın oyun planında çox önəmli yerə sahibdirlər. Xüsusilə top "Bayer"də olarkən, mərkəzdən oyun qurulmasında Topsoba və Tahın oyun ağlı komandanın zonalara yayılmasında müstəsna rol oynayır. Rəqibin gücünü zəiflətmək üçün onlara qarşı təzyiqlə topu oyuna daxil etməməyə çalışmaq, hücumlar zamanı itirilən topu ən azı 5-10 saniyəyə qazanmaq lazımdır. Çünki hücumlar zamanı məcburiyyətdən müdafiə xətti də çox irəli çıxır. Nəticədə 40-50 metrlik boşluq yaranır. "Qarabağ" hücum zamanı bu məqama diqqət yetirməlidir. Çünki onlar uzun ötürmələrlə hər an təhlükəli epizodlar yaratmağı bacarırlar. Bir sözlə, cinahdan hücuma üstünlük verməklə, xüsusilə bunu soldan etməklə "Bayer"ə qarşı yaxşı oyun qura bilərik.

Uğurlar, "Qarabağ"!

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

“AZƏRBAYCAN” *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 15.03.2024-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# XIV Beynəlxalq Multikulturalizm Qış Məktəbi Qubada davam edir

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə keçirilən "Sabahın liderləri: Gənclər sivilizasiyaların toqquşmasına qarşı" adlı XIV Beynəlxalq Multikulturalizm Qış Məktəbi Qubada öz işini davam etdirir.





AZƏRTAC xəbər verir ki, Qış Məktəbində Türkiyə, Braziliya, Rumıniya, Rusiya, Amerika Birləşmiş Ştatları, Gürcüstan, Bolqarıstan, Yaponiya, Əfqanıstan, Çin, Özbəkistan, Qazaxıstan və Azərbaycandan 20-dən çox tələbə iştirak edir.

Martin 13-də iştirakçılar Azərbaycan Dillər Universitetinin dosenti Afət Musayevanın "Multikulturalizm Azərbaycan modeli sivilizasiyaların toqquşmasına cavab kimi" mövzusunda məruzəsini dinləyiblər.

Məruzəçi qeyd edib ki, Azərbaycan müxtəlif dəyərləri bir-biri ilə birləşdirən körpüdür. Tarixi faktlar da sübut edir ki, fərqli dünyagörüşünə, milli-mənəvi dəyərlər sisteminə, dini baxışlara sahib olan xalqların bir-biri ilə dialoq qurmaq, ortaq dil tapmağa çalışmaq kimi nəcib təşəbbüsləri bir çox hallarda bəşəriyyəti fəlakətlərdən, müharibə və toqquşmalardan xilas edib. "Tarixən başqa millətlərə, dinlərə, fərqli mədəniyyətlərə dözümlü yanaşma ilə seçilən Azərbaycanda müşahidə edilən tolerantlıq xalqımızın milli-mənəvi dəyərlər sistemindən, düşüncə tərzindən qaynaqlanır. Geostrateji mövqeyinə görə müxtəlif dünyagörüşlərinin, milli-mənəvi dəyərlərin qovuşduğu bu torpaqlarda yaşayan insanlar birgəyaşayışın təkcə coğrafi deyil, həm də mənəvi təzahürünü, fərqli mədəniyyətlərin dialoqunu öz gündəlik həyatlarında hiss edirlər. Bu gün hər bir azərbaycanlı fəxrlə deyə bilər ki, xalqımız tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən qoruyaraq saxlamış və nəsildən-nəslə ötürmüşdür", - deyə Afət Musayeva bildirib.

Qış məktəbi mart ayının 17-dək Quba və Qusar rayonlarında fəaliyyət göstərəcək.

Qış məktəbi ərzində iştirakçılara "Azərbaycanda mədəniyyətlərin dialoqu və dinlərarası harmoniya", "Müasir cəmiyyətdə dözümsüzlük problemi: ksenofobiya, islamofobiya, irqçilik" mövzularında mühazirələr, "Sivilizasiyaların toqquşması, yoxsa dialoq?" mövzusunda seminar keçiriləcək.

Qış məktəbi çərçivəsində təşkil olunan "Öz xalqını təqdim et" adlı musiqili axşamlarda iştirakçı tələbələr öz xalqlarının mədəniyyəti, adət-ənənələri ilə bağlı məlumat verəcəklər.

İştirakçılar Qubada dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı Qəsəbədə yerli icma ilə görüşlər keçirəcək, məscid, kilsə və sinaqoqları, Quba Soyqırımı Memorial Kompleksini ziyarət edəcək, "Şahdağ" Turizm Mərkəzinin xidmətləri ilə tanış olacaqlar.

Yay və qış məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır. Tədris layihəsi çərçivəsində dünyanın və respublikamızın ali təhsil müəssisələrində Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün yay və qış məktəbləri təşkil olunur. Burada məqsəd tələbə gənclərin multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə nəzəri biliklərinin inkişafına şərait yaratmaqdır. Artıq dəyərli ənənəyə çevrilən multikulturalizm yay və qış məktəblərinin nəticəsi olaraq xaricdə Azərbaycanın gənc dostlarının və onların yaxın çevrəsinin timsalında ölkəmizin haqq işini dəstəkləyən intellektual gənclərdən ibarət ünsiyyət platforması və güclü lobbisi formalaşıb. İntensiv şəkildə davam edən bu proses sübut edir ki, Prezident İlham Əliyevin Azərbaycanın dünyada tanıdılması istiqamətində müəyyənləşdirdiyi hədəflər uğurla reallaşmaqdadır.

# "Dünya arenasında ABŞ-yə heç kim hörmət etmir"

*Donald TRAMP:* "Millətimiz tənəzzül içindədir. Bizə hörmətsizlik edildiyi və az qala gülüş obyekti sayıldığımız oxşar vəziyyət indiyədək heç vaxt olmayıb"



ABŞ-nin keçmiş prezidenti Donald Tramp Respublikaçılar Partiyasından prezident seçkilərində namizəd kimi irəli sürülmək üçün lazımi sayda nümayəndə toplayıb. Bu barədə CNN telekanalı məlumat yayıb.

Bildirildiyinə görə, praymeriz və kokusların nəticələrini nəzərə alan Tramp artıq partiyanın qarşıdan gələn qurultayında tələb olunan minimum 1215 nəfər olmaqla 1219 nümayəndənin dəstəyini qazanıb.

Prezident Co Bayden də demokratların qurultayında iştirak edəcək lazımi sayda nümayəndə ilə bağlı tələb olunan minimum həddi keçib.

Bundan əvvəl, martın 6-da Tramp 15 ştatdan 14-də ilkin seçkilərdə qalib gəlib. Onun rəqibi Nikki Heyli yalnız Vermontda qələbəyə sevinib. Bayden 15 ştatın hamısında qalib gəlib. Lakin o, Amerika Samoasında namizəd, sahibkar Ceyson Palmerə uduzub.

Növbəti, 60-cı prezident seçkiləri 2024-cü il noyabrın 5-nə təyin edilib. Hazırkı dövlət başçısı seçkidə məğlub olarsa, ABŞ-nin sayca 47-ci prezidenti hakimiyyətə gələcək. Avqust-sentyabr aylarında partiyaların qurultayları keçirilməli, hər partiyadan bir namizəd rəsmən təsdiqlənməlidir. Son mərhələ noyabrda keçiriləcək səsvermə olacaq.

Bu arada Tramp, Baydenin siyasəti səbəbindən ABŞ üçün ciddi problemlər yarandığını vurğulayıb. O yerli mediaya bildirib ki, ABŞ Bayden administrasiyasının siyasəti ucbatından ciddi problemlərlə üzləşib və ölkə gülüş obyektinə çevrilib: "Ölkəmiz ciddi problemlər içindədir. Dünya arenasında bizə heç kim hörmət etmir. Ölkəmizin tarixində ən pis prezidentə sahibik, onun adı Co Baydendir".

Eks-prezidentin fikrincə, ən dəhşətlisi odur ki, olkənin reputasiyasına vurulan zərbə xalq kütlələrinə pis təsir edir: "Millətimiz tənəzzül içindədir. Bizə hörmətsizlik edildiyi və az qala gülüş obyekti sayıldığımız oxşar vəziyyət indiyədək heç vaxt olmayıb".

Eyni zamanda eks-prezident bu il prezident seçkilərində qalib gələcəyi təqdirdə vəziyyəti düzəltməyi planlaşdırır.

Tramp qarşıdan gələn prezident seçkilərində qalib gələcəyi təqdirdə Kapitoliyə basqın edənləri əfv etmək niyyətində olduğunu açıqlayıb. Bu barədə o, martın 12-də "Truth" sosial şəbəkəsindəki səhifəsində yazıb: "Sizin növbəti prezidentiniz kimi mənim ilk hərəkətlərim sərhədi bağlamaq və... yanvarın 6-da haqsız yerə həbs edilmiş girovları azad etmək olacaq".

2021-ci il yanvarın əvvəlində ABŞ-nin hazırkı lideri Co Baydenin qalib gəldiyi 2020-ci il prezident seçkilərinin nəticələrindən narazı olan və onların saxtalaşdırıldığını hesab edən Trampın tərəfdarları Vaşinqtondakı Kapitoli təpəsində iğtişaşlar törədiblər. Etirazçılar Kapitoli binasını ələ keçirməyə cəhd edib və içəri daxil olublar. Nəticədə binadakı otaqlar dağıdılıb, 5 nəfər həlak olub, onlarla insan yaralanıb və həbs edilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyində olan struktur idarələr üçün qızdırıcı elementlərin satınalınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 29 mart 2024-cü il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi

**ŞAMİL QARAXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Elman Məmmədova əzizi

**BƏXTİYAR ASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağdamdan Vaqif Həsənov Milli Məclisin deputatı Elman Məmmədova əzizi

**BƏXTİYAR ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Vüqar Mustafayev və nazirliyin kollektivi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi

**ŞAMİL QARAXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4298**
**Sifariş 562**

**Qiyməti 60 qəpik**